

Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır







# Zəfər tarixinin başladığı gün


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 27 sentyabr 2023-cü il, çərşənbə / № 175 (6519). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


## Dövlət suverenliyimizin təmini ilə nəticələnən şərəfli yol



Bax səh. 2

## Xüsusi təyinatlı yanğınsöndürmə heyətimiz Xankəndidə

Bax səh. 3

## Türkiyə Prezidentindən İrəvana çağırış

## II "Türk Dövlətləri Aqrobiznes Forumu"

## Nağdsız ödənişlər...

## Enerji əməkdaşlığının yeni səhifəsi




Hazırda kifayət qədər yüksək səviyyədə olan Azərbaycan-Türkiyə münasibətləri çoxtərəfli xarakterə malikdir. Qarşılıqlı maraqlar əsasında qurulan əlaqələr ən müxtəlif sahələri əhatə edir. Ötən il iki ölkə arasında ticarət dövriyyəsi 6 milyard dollardan çox olub. Cari ilin əvvəlindən bəri isə bu həcm daha 40 faiz artıb. Həm Türkiyə, həm də Azərbaycan qarşılıqlı ticarət dövriyyəsini yaxın perspektivdə ildə 15 milyard dollar və bundan daha yüksək səviyyəyə qaldırmaqla bağlı hədəf qoyublar. Artım dinamikası bu hədəfə çatılmasının tam real olduğunu deməyə əsas verir. O cümlədən imzalanan yeni sənədlər və icrasına başlanan layihələr qarşılıqlı fəaliyyət sferalarının genişlənməsinə münbit zəmin formalaşdırır. Bu günlərdə icrasına start verilən layihələrin sırasına daha biri də əlavə olunub. Söhbət sentyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə təməli qoyulan İğdır-Naxçıvan qaz kəməri layihəsindən gedir...

Bax səh. 5

## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. 2023-cü il sentyabrın 26-da YAP Yardımlı rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Yardımlı rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar...

Bax səh. 4

## Sülh üçün yaranan yeni imkanlar

Bax səh. 4

## Qardaşlıq nümunəsi

Bax səh. 4

## İŞİD təhdidi geri dönür?

Bax səh. 6

## Ağır həftənin qalibi Azərbaycan

Bax səh. 7

# Zəfər tarixinin başladığı gün

## Dövlət suverenliyimizin təmini ilə nəticələnən şərəfli yol

*Mübariz ABDULLAYEV*

27 sentyabr tarixi 3 il öncəyə qədər təqvimin adi günlərindən biri sayılırdı. 3 il öncə, 2020-ci ildə isə bu təqvim xüsusi bir anlam qazandı - işğal altındakı torpaqlarımızın azad edilməsi ilə nəticələnən Vətən müharibəsinin, 44 günlük Zəfər yolunun başlanğıcı məhz 2020-ci ilin sentyabrın 27-nə təsadüf etdi. 27 sentyabrdan başlanan yol Azərbaycan xalqının şərəf tarixinə, qürur mənbəyinə çevrildi. Böyük Qələbənin təmin olunmasına Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin nümayəndələri öz töhfələrini verdilər - amma müharibənin əsas ağırlığı Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, məhz gənclərin üzərinə düşdü. Vətənin müdafiəsini, azadlığını təmin etmək yükünü öz çiyinlərinə götürmüş gənc əsgər və zabitlərimiz addım-addım, qarış-qarış irəliləyərək Ermənistanın uzun illər ərzində qurduğu bir neçə mərhələli mühəndis-istehkam sistemlərini yarıb keçdilər. Döyüş, azadlıq qurbansız olmur - igid övladlarımız torpaqların işğalı uğrunda öz canlarını fəda etdilər. 44 gün davam edən müharibədə təxminən 3 min igidimiz şəhidlik zirvəsinə ucaldı. Bu gün Şuşada, Laçında, Kəlbəcərdə və digər ərazilərimizdə üçrəngli bayrağımız əzəmətlə ucalırsa, buna görə məhz şəhidlərimizə borcluyuq. Azərbaycan dövləti və cəmiyyəti şəhidlərin xatirəsini daim uca tutur. Prezident İlham Əliyev 2 dekabr 2020-ci il tarixində "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" sərəncam imzalayıb. Həmin sənədə əsasən hər il sentyabrın 27-si ölkəmizdə Anım Günü kimi qeyd edilir.

### İşğaldan və cəzasızlıqdan ruhlanan düşmən...

Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti yüzillərlə davam edib. Ötən əsrin 80-90-cı illərində isə yaranan siyasi situasiyadan istifadə edərək onlar öz xain planlarını icra etməyə başladılar. Ermənistan torpaqlarımızın 20 faizini o zamanlar müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanda hakimiyyəti zəbt etmiş AXC-"Müsavat" cütlüyünün xəyanəti nəticəsində baş verən mənfi proseslərdən, hakimiyyət boşluğundan, hərc-mərclikdən, həmrəyliyin təmin olunmamasından istifadə etməklə və havadarlarının dəstəyindən bəhrələnməklə işğal etmişdi.

Beynəlxalq təşkilatların, ayrı-ayrı böyük dövlətlərin, o cümlədən də artıq tarixdə qalan "Dağlıq Qarabağ münaqişəsi"nin sülh yolu ilə həllinə cəlb olunan ATƏT-in Minsk qrupunun loyallığı, işğalçılıq siyasətinə görə Ermənistanın cəzalandırılmaması mənfur düşməni daha da ruhlandırırdı. Ermənistan işğal məhsulu olan status-kvonu sonsuzadək saxlamaq niyyəti güdürdü və bundan ötrü müxtəlif təxribatlara əl atırdı. Hətta müharibədən əvvəl keçmiş təmas xətti boyunca və iki ölkə arasındakı sərhəddə təxribatları daha da intensivləşdirən işğalçı ölkədən "yeni ərazilər uğrunda yeni müharibə" iddiaları eşidilirdi.

### Azərbaycan real gücə çevrilmə yolunda irəliləyirdi

Təbii ki, Azərbaycan dövləti və xalqı ölkə ərazisinin bir hissəsinin işğal altına düşməsi faktı ilə heç vaxt barışmadı. Üç onillik ərzində ölkəmizin ərazi bütövlüyünün təmin olunması məsələsi Azərbaycanın siyasi gündəliyinin mərkəzində dayandı. Prezident İlham Əliyev, eyni zamanda, ölkəmizin milli gücünün artırılmasına hesablanan ardıcıl siyasət həyata keçirirdi. Bu siyasət, ilk növbədə, müharibə vəziyyətində olan respublikamızın iqtisadi potensialının, maliyyə imkanlarının artırılmasına və bu əsasda torpaqlarımızı işğaldan azad etməyə qadir olan güclü ordu quruculuğuna nail olmağa hesablanmışdı. Aparılan uğurlu siyasətin məntiqi nəticəsi olaraq ölkəmiz qısa müddətdə qarşıya qoyduğu hədəflərə nail oldu. Güclü iqtisadiyyat, güclü ordu sülh danışıqlarında ölkəmizin daha qətiyyətli mövqe tutmasını şərtləndirirdi. Prezident İlham Əliyev müxtəlif tribunalarda Azərbaycanın gec-tez öz ərazi bütövlüyünün təmin edilməsinə nail olacağını bildirəndə məhz Silahlı Qüvvələrimizin gücünə və cəmiyyətimizin həmrəyliyinə arxalanırdı.





### 27 sentyabradək döyüşlərdən-döyüşlərə

2020-ci il sentyabrın 27-də 44 günlük müharibə başlayanadək Azərbaycan bir neçə dəfə öz iradəsini və gücünü düşmənə göstərmişdi. 2016-cı ilin Aprel döyüşləri həm mənəvi, həm də strateji nöqteyi-nəzərdən bizim çox böyük qələbəmiz idi. Aprel döyüşlərində düşmənin yaratdığı "məğlubedilməz ordu" mifi tar-mar oldu. Həmin döyüşlər nəticəsində azad etdiyimiz yüksəkliklər İkinci Qarabağ müharibəsində Ordumuzun uğurlu əməliyyatlar həyata keçirməsi üçün əlverişli imkanlar yaratdı. Prezident İlham Əliyevin vurğuladığı kimi, Aprel döyüşlərindən sonra Ermənistan qorxuya düşmüşdü və faktiki olaraq işğal edilmiş torpaqlardan qoşunları çıxarmağa hazır idi, hətta buna söz vermişdi. Ancaq ondan sonra sözünü tutmadı. Aprel döyüşləri onlar üçün dərs olmadı. Ondan iki il sonra Naxçıvanda "Günnüt" əməliyyatı keçirildi, strateji yüksəkliklər nəzarətə götürüldü. Bu da ermənilərə dərs olmadı. Və nəhayət...



### Xalq - Dövlət - Ordu birliyinin gücü...

Adətən, müharibəyə başlayan ölkədə ajiotajlar yaşanır. Azərbaycanda isə 2020-ci il 27 sentyabr tarixində düşmənin keçmiş təmas xətti boyunca törətdiyi növbəti təxribatların qarşısının alınması məqsədilə Ordumuzun Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə genişmiqyaslı əks-hücum əməliyyatlarına başlaması xəbəri elan olunanda tamam fərqli mənzərə müşahidə edildi. Bütövlükdə cəmiyyətimiz müharibənin başlamasından nəinki məyus oldu, əksinə bunu çoxdan gözlənilən xəbər kimi qəbul etdi. Çünki Azərbaycan əks-hücum əməliyyatlarına, döyüşə tarixi torpaqlarını işğaldan azad etmək uğrunda başlamışdı. Bu, ədalətli müharibə idi. Müharibənin ilk günündə Prezident İlham Əliyev xalqa tarixi müraciət etdi, eyni zamanda, onun sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası toplandı. Sentyabrın 27-də xarici ölkələrdə yaşayan azərbaycanlılar bəyanat yaydılar. Eyni zamanda, qeyri-hökumət təşkilatlarının qəbul etdikləri müraciətdə vətəndaş cəmiyyəti təsisatlarının təmsilçiləri Ali Baş Komandanımızın və Ordumuzun yanında olduqlarını bildirdilər. 500-dən çox QHT beynəlxalq təşkilatlara müraciət ünvanladı. Həmin gün Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiya Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair birgə bəyanat yaydı. Dövlətimizin başçısı xalqa müraciətində və Təhlükəsizlik Şurasının iclasındakı çıxışında Ordumuzun əks-hücum əməliyyatlarına başlamasının səbəblərinə aydınlıq gətirdi, Zəfərə böyük inamını ifadə etdi. TŞ-nın iclasındakı çıxışında cəmiyyətimizdəki yüksək həmrəyliyə diqqət çəkən dövlətimizin başçısı vurğuladı: "Qətiyyətlə deyə bilərəm ki, - bu gün səhər mən bütün bölgələrdən, cəbhəyanı bölgələrdən məlumat almışam, - Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər".

### İlk qələbə müjdələri

Azərbaycan xalqı Vətən müharibəsinin sentyabrın 27-də cəbhədən gələn ilk qələbə müjdələrinə sevindi. Sentyabrın 27-də cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi hərbi əməliyyat nəticəsində Murov dağı silsiləsindəki Murov zirvəsi azad olundu. Əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürüldü. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verdi. Azərbaycan Ordusunun qoşun növləri və bölmələrinin həyata keçirdiyi uğurlu əkshəmlə əməliyyatı nəticəsində işğal altında olan bir sıra kəndlərimiz, vacib yüksəkliklər və əlverişli ərazilər azad olundu. O cümlədən cəbhənin Füzuli-Cəbrayıl istiqamətində hərbi əməliyyatlar nəticəsində uzun illər ərzində düşmən işğalındakı Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri azad edildi. Bundan əlavə, Ağdərə rayonu istiqamətində və Murovdağ silsiləsindəki hündürlüklərdə yerləşən düşmən postları darmadağın edilərək, bir sıra hakim yüksəkliklər nəzarətə götürüldü.

### Tarixi ədalətin bərpası

Bəli, 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsinin başlaması zərurətə çevrildi. Düşmən cəzalandırılmalı idi və Azərbaycan Ordusu bunu layiqincə etdi. Silahlı Qüvvələrimiz Vətən müharibəsində misilsiz şücaətlər göstərərək 300-dən çox yaşayış məntəqəsini bilavasitə döyüş meydanında geri qaytardı. Alınmaz qala sayılan Şuşanın, Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Hadrutun, Xocavəndin geri qaytarılması uğrunda gedən döyüşlərdə igid əsgər və zabitlərimiz misilsiz qəhrəmanlıqlar göstərdilər. Azərbaycanın bir-birinin ardınca qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı. Sentyabrın 27-də başlayan müharibə 44 gündən sonra Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və noyabrın 10-da onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalaması ilə nəticələndi. Həmin sənədə əsasən məğlub Ermənistan Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana döyüşsüz qaytarmağa məcbur oldu. Bununla da Azərbaycanın cəlb olunduğu ədalətli müharibə ərazi bütövlüyümüzün və tarixi ədalətin bərpası ilə başa çatdı.



### Erməni vandalizmi - dinc sakinlərə qarşı qəsd...

Ermənistanın silahlı birləşmələri həm Birinci, həm də İkinci Qarabağ müharibəsi dövründə qeyri-insani davranışları, müharibə cinayətləri ilə yadda qaldı. Onlar döyüşlərdəki məğlubiyyətlərinin əvəzini, bir qayda olaraq, silahları mülki şəxslərə, yaşayış məntəqələrinə tuşlamaqla çıxmağa çalışırdılar. Bu yolla onlar hələ Birinci Qarabağ müharibəsi zamanı Ağdaban, Qaradağlı, Başlıbel kimi faciələr törədiblər. İkinci Qarabağ müharibəsində də eyni ssenari təkrarlandı. 44 günlük müharibənin əvvəlindən müzəffər Azərbaycan Ordusunun gücü qarşısında tab gətirə bilməyəcəklərini başa düşən erməni hərbi birləşmələri keçmiş təmas xəttindən uzaqda yerləşən ərazilərə - Gəncəyə, Bərdəyə, Tərtərə və digər yaşayış məntəqələrimizə qadağan olunmuş silahlardan mərmilər atdılar. Nəticədə 100 nəfərədək mülki vətəndaşımız Ermənistan tərəfindən törədilmiş müharibə cinayətlərinin qurbanı oldu, ayrı-ayrı ünvanlarda yaşayış evləri, mülki infrastruktur dağıldı.

2020-ci il Vətən müharibəsində əldə olunan qələbə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə yanaşı, regionda sülhün və təhlükəsizliyin təmini baxımından da böyük əhəmiyyətə malik oldu. Təəssüfləndirici haldır ki, noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatın müddəalarına, üzərinə götürdüyü öhdəliklərə riayət etməyən Ermənistan Azərbaycan ərazilərindən silahlı birliklərini çıxarmadı. Bu silahlı qruplaşmalar isə zaman-zaman Azərbaycan Ordusuna, hətta dinc insanlara qarşı hərbi təxribatlar törədir, silahlı qarşıdurmalar yaradır, mina təhdidi formalaşdırırdı. Sentyabrın 19-da Xocavənd rayonunda baş verən təxribat nəticəsində 2 mülki şəxs, 4 polis həyatını itirdi.



### Dövlət suverenliyimiz tam təmin edildi

Bunun ardından Azərbaycan Müdafiə Nazirliyi bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılması ilə bağlı məlumat yaydı. Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlandığı bəyan olundu. Cəmisi 24 saat davam edən lokal tədbirlər nəticəsində Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyub təslim oldular. Beləliklə, dövlət suverenliyimiz tam təmin edildi.

### Vətən müharibəmiz şanlı tariximizdir

Son 200 ildə xalqımız böyük faciələrlə, o cümlədən də zaman-zaman torpaq itkiləri ilə üzləşib. İndiki Ermənistanın paytaxtı da daxil olmaqla, əksər yaşayış məntəqələri qədim Azərbaycan torpaqları olub. Sonradan ermənilərin dəyişdirdikləri toponimlər, maddi mədəniyyət nümunələri, uzun illər ötəndən sonra da özünün azərbaycanlı aurasını saxlayan yaşayış məntəqələri, qəbiristanlıqlar və digər belə nümunələr bunu bir daha təsdiqləyir.

Azərbaycan ərazisində heç bir əsası olmadan yaradılmış keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin və onun ətrafındakı rayonların ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistan tərəfindən işğala məruz qalması da ermənilərin və onların bağlı olduqları qüvvələrin məkrli planlarının davamı idi. Havadarlarının köməyinə arxalanan ermənilər yenə də Azərbaycandan ərazilər qoparmaq istəyirdilər. Ancaq bu dəfə ermənilər qarşılarında güclü Azərbaycanı və xalqına arxalanan güclü Lideri gördülər. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirən Azərbaycan Ordusu 44 gün ərzində düşmənə sözün əsl mənasında tarix dərsi verdi. Dövlətimizin başçısı 2022-ci il sentyabrın 21-də Laçın şəhərində Azərbaycan Bayrağını ucaltdıqdan sonra etdiyi çıxışında Ordumuzun rəşadətini yüksək dəyərləndirərək vurğulayıb ki, bizim bütün şanlı Vətən müharibəmiz şanlı tariximizdir.

# Heydər Əliyev haqqında sənədli film




## Film Ulu Öndərin 100 illik yubileyinə həsr olunub

Oktyabrın 10-da Heydər Əliyev Mərkəzində "Liderin ürəyi" ("Serdçe lidera") sənədli filminin təqdimatı keçiriləcək.

TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, Rusiya Federasiyasının Əməkdar jurnalisti Mixail Qusmanın müəllifi olduğu film Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilib. AZƏRTAC xəbər verir ki, film Ulu Öndər Heydər Əliyevin xalqın təkidi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı və ölkəyə rəhbərlik etdiyi dövrü əhatə edir. Ekran əsərində belə bir qayıdışın dünya tarixində ilk dəfə baş verdiyi vurğulanır. Filmin təqdimatı üçün 10 oktyabr tarixinin seçilməsi təsadüfi deyil. Belə ki, 10 oktyabr Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə birinci dəfə Prezident seçildikdən sonra andiçmə mərasiminin keçirildiyi gündür.

Heydər Əliyev Azərbaycan xalqının tarixində mühüm rol oynayıb, dünya siyasətində silinməz iz qoyub. "Liderin ürəyi" sənədli filmində Mixail Qusmanın vaxtı ilə Bill Klinton, Corc Buş, Jak Şirak, Madlen Olbrayt, Toni Bleyer, Zbiqnev Bjezinski və digər dünya siyasətçiləri ilə Heydər Əliyev barədə apardığı söhbətlər də yer alıb.

Məhz Heydər Əliyevin dövründə rəsmi Bakı beynəlxalq arenada öz mövqeyini gücləndirərək strateji tərəfdaşlarının sayını artırıb, ATƏT və BMT kimi təşkilatlarda Azərbaycan diplomatiyası intensiv xarakter alıb. Uzaqgörən siyasətçi Heydər Əliyev xarici şirkətlərin Azərbaycana irihəcmli sərmayələr yönəltmələrinə, "Əsrin müqaviləsi"nin imzalanmasına nail olub.

Filmdə Heydər Əliyevin Mixail Qusmanla eksklüziv müsahibələrini, dəyərli fikirlərini dinləmək, siyasi fəaliyyəti ilə bağlı nadir arxiv kadrları görmək mümkündür.

Çəkilişlər Moskva, Bakı və Ulu Öndərin doğulduğu Naxçıvanda aparılıb.

"Liderin ürəyi" sənədli filminin rejissoru Valeri Spirin, ssenari müəllifi Marina Deniseviçdir. Azərbaycanın Xalq artisti Polad Bülbüloğlu isə film üçün şair Yuri Ryaşentsevin şeirlərinə mahnı bəstələyib. Film Azərbaycan və rus dillərində hazırlanıb.

# Xüsusi təyinatlı yanğınsöndürmə heyətimiz Xankəndinə gedib

Azərbaycanın Xankəndi şəhərinin yaxınlığında yanacaqdoldurma məntəqəsində yanğınla müşayiət olunan partlayış hadisəsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Administrasiyası məlumat yayıb. Məlumatda bildirilib ki, sentyabrın 25-də Azərbaycanın Xankəndi şəhərinin yaxınlığında yanacaqdoldurma məntəqəsində yanğınla müşayiət olunan partlayış hadisəsi baş verib. Hazırda ərazidə yanğın davam edir: "Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin 15 ədəd xüsusi təyinatlı yanğınsöndürmə avtomobili heyəti ilə birgə hələ də davam edən yanğının söndürülməsi üçün Ağdam-Əsgəran-Xankəndi yolu ilə Xankəndi şəhərinə yola düşüb. Ehtiyac yaranacağı təqdirdə əlavə qüvvələr də cəlb olunacaq".



## Bağçaların, təcili tibbi yardım və digər xidmətlərin təminatı davam etdirilir

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının digər məlumatında isə bildirilib ki, Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli və orada yaşayan erməni sakinlərinin ehtiyaclarının təmin olunması üçün təxirəsalınmaz tədbirlər davam etdirilir.

2023-cü il sentyabrın 26-da bağçaların, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin yanacaq-sürtkü materialları ilə təmin edilməsi məqsədilə Ağdam-Əsgəran-Xankəndi yolu vasitəsilə 38 ton benzin, 16 ton dizellə dolu növbəti 2 avtomobil yola salınıb.

# Ermənistan öz gələcəyini düşünürsə...



## Bakı və Ankaranın sülh təşəbbüslərinə adekvat cavab verməlidir

Hazırda Cənubi Qafqaz aktiv geosiyasi proseslərin cərəyan etdiyi məkan olaraq qalır. 44 günlük Vətən müharibəsində Azərbaycanın öz torpaqlarını erməni işğalından azad edərək qələbə qazanması regiondakı siyasi və hərbi vəziyyəti əhəmiyyətli dərəcədə dəyişib. Ölkəmizin yaratdığı yeni reallıqlar isə bölgənin sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinə çevrilməsini təşviq edir. Bu baxımdan, Prezident İlham Əliyev tərəfindən irəli sürülən təşəbbüslər tarixi - siyasi əhəmiyyət daşıması ilə yanaşı, Cənubi Qafqazın yeni konfiqurasiyasını bilavasitə müəyyənləşdirməyə xidmət edir. Ölkəmizin açıq bəyan edilmiş və beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunmuş sülh gündəliyi və təşəbbüsləri Cənubi Qafqazda regional inkişaf üçün yeni imkanların yaradılmasına yönəldilib. Azərbaycanın bu təşəbbüsləri qardaş Türkiyə tərəfindən də dəstəklənir və hər iki ölkə bölgənin tərəqqisi naminə sülh mühitini reallaşdırmağa çalışır.

Ümumiyyətlə, Azərbaycan və Türkiyənin təşəbbüsləri Cənubi Qafqazın sülh və əməkdaşlıq məkanına çevrilməsinə xidmət edir. Bunun üçün Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanmalı, eləcə də Qarabağdakı erməni sakinlərimizin bizim cəmiyyətimizə inteqrasiya sürətləndirilməlidir. Artıq inteqrasiya prosesinə start verilib. NATO-nun ən güclü dövlətlərindən olan Türkiyənin bölgə ilə bağlı mövqeyi də prosesdə həlledici amillərdən biridir.

Sentyabrın 25-də Azərbaycana rəsmi səfəri çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Naxçıvanda mətbuata bəyanatında deyib ki, bölgədə əhatəli normallaşma üçün yeni fürsət pəncərələri açılıb. Bu fürsətin dəyərləndirilməli olduğuna inamını ifadə edən cənab Ərdoğan Ermənistana çağırış edərək deyib: "Ermənistanın ona uzadılan sülh əlini tutmasını və artıq səmimi addımlar atmasını gözləyirik. Hər zaman vurğuladığım kimi, sülhün uduzanı olmaz. Bölgəmizdə sülh, sabitlik və rifahın yaranması xalqlarımıza olan borcumuzdur. Biz bu borcu yerinə yetirməkdə qətiyyətliyik, səmimiyik. Arzumuz qarşı tərəfin də eyni səmimiyyəti göstərməsidir".

Ümumiyyətlə, Cənubi Qafqazda sülhün təmin olunması üçün Türkiyə liderinin şəxsi təşəbbüsləri xüsusi vurğulanmalıdır. Bütün beynəlxalq tribunalardan sülh çağırışları edən, Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putinlə də mütəmadi olaraq bölgədə sabitliyin təmin olunmasını müzakirə edir. Bu baxımdan, bir sıra yerli və xarici ekspertlər onun Soçidə Rusiyanın dövlət başçısı ilə keçirdiyi son görüşünün önəmini xüsusi vurğulayırlar. Rəcəb Tayyib Ərdoğan Naxçıvan səfərindən Türkiyəyə dönüşü zamanı da təyyarədə səfərinin yekunları ilə bağlı türkiyəli jurnalistlərə bölgədə sülh məsələləri barədə açıqlamalar verib. O qeyd edib ki, 44 günlük Vətən müharibəsinin ardından bölgədə dayanıqlı sülh və sabitliyin təsis edilməsi yolunda yeni bir fürsət pəncərəsi açılıb: "Bu gözləntimizi sentyabrın 11-də telefon danışığı zamanı Ermənistanın baş naziri Nikol Paşinyana da ifadə etdim. Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və qonşuluq hüququna hörmətlə yanaşıldığı təqdirdə həll edilməyəcək heç bir problem görmürük. Azərbaycanla Ermənistan arasında nizamlanma prosesində irəliləyişin təmin edilməsi regionda normallaşmaya da böyük töhfə verəcək. Cənubi Qafqazda sabitlik, sülh və rifahın bərqərar olması üçün Azərbaycanla birlikdə fəaliyyətimizi davam etdirəcəyik".



## Türkiyə Prezidentindən İrəvana çağırış

Beləliklə, hazırkı yeni geosiyasi reallıqlar şəraitində Türkiyənin bir sıra coğrafiyalarda, o cümlədən Cənubi Qafqazda təsir imkanları artır. Qarşıdakı dövrdə proseslərin inkişafı Türkiyənin Cənubi Qafqaz regionundakı sülh prosesinə də ciddi töhfə verəcəyini deməyə əsas verir. Bir sözlə, Türkiyə artıq regional müstəvidə deyil, qlobal səviyyədə öz sözünə sahib olan dövlətlərdən sayılır. Bu, regionun digər böyük aktorları tərəfindən də etiraf olunur. Bütün bunların fonunda Türkiyənin Cənubi Qafqaz regionunda sülhün təmin olunması yönündəki təşəbbüslərin reallığa çevrilməsi ehtimalı güclənir. Ermənistan anlamalıdır ki, onun gələcəyi Azərbaycan və Türkiyə ilə əməkdaşlıqdan keçir. Ona görə də, rəsmi İrəvan Bakı və Ankaranın sülh çağırışlarına tezliklə əməl etməlidir. Çünki zaman Ermənistanın əleyhinə işləyir və bölgədəki son proseslər də bunu birmənalı olaraq təsdiqləyir.

*Nardar BAYRAMLI*

# Aqrar sektorun inkişafı üçün əlverişli şərait

## Baş nazir Əli Əsədov TDT ölkələrinin nazirləri ilə görüşüb



Sentyabrın 26-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türk Dövlətləri Təşkilatının Bakıda keçirilən 2-ci Kənd Təsərrüfatı Nazirləri Toplantısında və 2-ci Türk Aqrobiznes Forumunda iştirak edən kənd təsərrüfatı nazirləri ilə görüşüb. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Bakıda keçirilən 2-ci Kənd Təsərrüfatı Nazirləri Toplantısının və 2-ci Türk Aqrobiznes Forumunun əhəmiyyətini vurğulayıb, bu tədbirlərin Türk dövlətləri arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. Bildirilib ki, türk dünyası ölkələri ilə əlaqələrin möhkəmləndirilməsi Azərbaycan üçün xarici siyasətin əsas prioritetlərindən biridir. Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində görülən ardıcıl tədbirlər barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, bu məqsədlə ölkədə aparılan uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatın diversifikasiyasına nail olunub, bütün digər sahələr kimi aqrar sektorun da inkişafı üçün əlverişli şərait yaranıb. Azərbaycanda aqro-ərzaq sisteminin davamlı transformasiyasının təmin edilməsi istiqamətində yaşıl enerji, rəqəmsallaşma və innovativ həllərin tətbiqi barədə söhbət açılıb. Ölkədə aqroparkların yaradılması prosesinin geniş vüsət aldığı bildirilib, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatının inkişaf potensialı barədə məlumat verilib.

Görüşdə Azərbaycanla Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətləri arasında kənd təsərrüfatı sahəsində həyata keçirilən layihələr, həmçinin əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

# Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında investisiya imkanları

## II "Türk Dövlətləri Aqrobiznes Forumu"




Bakıda II "Türk Dövlətləri Aqrobiznes Forumu" keçirilib. Tədbir Türk Dövlətləri Təşkilatının Kənd Təsərrüfatı Nazirlərinin 2-ci Toplantısı çərçivəsində təşkil olunub. Forumda təşkilata üzv dövlətlərin və müşahidəçi ölkələrin hökumət üzvləri, dövlət qurumlarının və aqrar sahə üzrə ixtisaslaşmış şirkətlərinin nümayəndələri iştirak ediblər. Çıxış edən Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov ölkədə aqrar sahədə aparılan islahatlar və gələcək hədəflər barədə tədbir iştirakçılarına məlumat verib. M.Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərimizi "yaşıl enerji zonası" elan etdiyini və bu ərazilərin böyük aqrar potensiala malik olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, hazırda əsas məqsəd işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatına yararlı torpaqları minalardan təmizləyərək xəstəliklərdən azad, rəqəmsal və ən müasir təcrübə və texnologiyalara əsaslanan dayanıqlı kənd təsərrüfatı sistemi qurmaqdır. Nazir TDT ölkələrinin iş adamlarını Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında investisiya imkanları ilə tanış olmağa və burada ən yaxşı təcrübələr və texnologiyaları tətbiq etməyə çağırıb.

Tədbirdə çıxış edən TDT Baş katibi Kubanıçbek Ömürəliyev təşkilata üzv ölkələrin kənd təsərrüfatı sahəsində mövcud vəziyyət və aqrar potensial barədə məlumat verib. Türkiyənin kənd təsərrüfatı və meşə naziri İbrahim Yumaklı TDT-ni üzv ölkələr arasında kənd təsərrüfatı, qida, infrastruktur, nəqliyyat sahələrində əməkdaşlığı genişləndirən mühüm bir platforma adlandırıb. Özbəkistanın kənd təsərrüfatı naziri Əziz Voitov vurğulayıb ki, üzv ölkələrin elmi-texnoloji, iqtisadi potensialı dayanıq inkişafa və ixrac coğrafiyasını genişləndirməklə qlobal bazarlara çatdırılmasına imkan verir.

Daha sonra Azərbaycanın kənd təsərrüfatı ilə bağlı hazırlanan videoçarx nümayiş etdirilib. II Türk Dövlətləri Aqrobiznes Forumu çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin aqrar sahə üzrə ixtisaslaşmış şirkətlərinin nümayəndələri arasında ikitərəfli görüşlər keçirilib.

# "Heydər Əliyev və Türk dünyası"

## Türk Dövlətlərinin Diaspor Gənclərinin I Forumu keçirilib

Sentyabrın 26-da Bakıda "Heydər Əliyev İli" çərçivəsində "Türk Dövlətlərinin Diaspor Gənclərinin I Forumu: Heydər Əliyev və Türk dünyası" adlı beynəlxalq forum öz işinə başlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Diaspora İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı və Türk Dövlətləri Təşkilatının (TDT) tərəfdaşlığı ilə keçirilən tədbirdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstanla yanaşı, TDT-də müşahidəçi üzv statusuna malik Türkmənistan, Şimali Kipr Türk Respublikası və Macarıstanın nümayəndə heyətləri iştirak ediblər. Çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov tədbirin Azərbaycan və Türk dünyası üçün çox mühüm tarixi hadisə - Azərbaycanın öz suverenliyini tam təmin etdiyi günlərdə keçirildiyinə diqqəti cəlb edib. Ümummilli Lider Heydər Əliyevin Türk dünyasının diaspor strukturlarının formalaşmasına və inkişafına xüsusi diqqət göstərdiyini xatırladan komitə sədri bildirib ki, məhz bu istiqamətin uğurla davam etdirilməsi İkinci Qarabağ müharibəsində və sentyabrın 19-da antiterror tədbirlərinin keçirilməsi zamanı TDT-nin ölkəmizə dəstək göstərməsində, Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirməsində böyük rol oynayıb. Çıxış edən Milli



Məclisin sədr müavini Adil Əliyev, Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov, TDT Baş katibinin müavini Yerzhan Mukaş Türk dünyasının birliyi uğrunda Heydər Əliyevin göstərdiyi xidmətlərin heç vaxt unudulmayacağını bildiriblər. Forum işini panel iclaslarla davam etdirib.

# Qardaşlıq nümunəsi

## Şuşa Bəyannaməsi - əlaqələri müttəfiqlik səviyyəsinə yüksəldən dönüş nöqtəsi

### Azərbaycan-Türkiyə münasibətlərinin dünyada analoqu yoxdur

*Nardar BAYRAMLI*

Azərbaycan və Türkiyəni bir-birinə dərin tarixi, milli, dini və mədəni köklər bağlayır. Bugünkü münasibətlərimiz də böyük öndər Mustafa Kamal Atatürkün dediyi "Azərbaycanın kədəri - kədərimiz, sevinci - sevincimizdir" və Ümummilli Liderimiz Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fəlsəfəsinə əsaslanır. Bu gün müstəqil dövlətlər olaraq münasibətlərimiz dostluq, qardaşlıq prinsiplərinə və strateji müttəfiqliyə əsaslanır. Tarixi köklərə, qardaşlığa əsaslanan Azərbaycan-Türkiyə əlaqələri bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticarət, humanitar, hərbi və digər sahələrdə bu gün ən yüksək zirvədədir.




Hər iki ölkə beynəlxalq müstəvidə də bir-birini birmənalı olaraq dəstəkləyir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincimiz də, kədərimiz də bir olub. Türkiyə və Azərbaycanın münasibətləri möhkəm təməllərə malikdir. Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək strateji tərəfdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim güclənməkdədir.

### Şuşa Bəyannaməsi münasibətlərimizi yeni müstəviyə qaldırdı

Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bütün sahələr üzrə davamlı inkişaf etdirilməsinə nail olan Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca dəyərlidir. Hər iki ölkənin rəhbəri müxtəlif beynəlxalq tədbirlərdə həmişə bir - birimizə birmənalı olaraq qarşılıqlı dəstək verməyin əsl örnəyini nümayiş etdiriblər. Sentyabrın 25-də Türkiyə Prezidentinin ölkəmizə rəsmi səfəri zamanı da bu gerçəklik bir daha təsdiqləndi. Liderlərin Naxçıvanda baş tutan görüşündə ölkələrimizin əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən məmnunluq ifadə olunub.

Xatırladaq ki, 2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi ilə münasibətlərimizin yeni mərhələsi başladı. Şuşa Bəyannaməsi hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək üçün mühüm əhəmiyyət kəsb edib. Sentyabrın 25-də mətbuata bəyanatı zamanı Prezident İlham Əliyevin dediyi kimi, iki il bundan əvvəl uzun zaman davam edən işğaldan sonra azad edilmiş Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi - müttəfiqlik bəyannaməsi bizim münasibətlərimizi yeni müstəviyə qaldırdı. Dövlətimizin başçısı qeyd edib: "Bu gün bu əlaqələr ən yüksək zirvədədir və biz indi bütün istiqamətlər üzrə əlaqələrimizin çox fəal dövrünü yaşayırıq". Rəcəb Tayyib Ərdoğan isə qeyd edib ki, Türkiyə-Azərbaycan əlaqələri dünyada bənzəri olmayan müstəsna səviyyədədir: "Bir millət, iki dövlət" şüarı çərçivəsində əlaqələrimizi və əməkdaşlığımızı bütün sahələrdə gücləndirmək üçün fəaliyyətimizi davam etdiririk. İlham qardaşımla imzaladığımız Şuşa Bəyannaməsi əlaqələrimizi müttəfiqlik səviyyəsinə yüksəldən dönüş nöqtəsidir".



### Antiterror tədbirlərinə növbəti dəstək

30 il əvvəl Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının 2020-ci ildə 44 günlük müharibə nəticəsində erməni qəsbkarlarından azad edilməsi zamanı Türkiyə dövlətinin və onun Prezidentinin göstərdiyi mənəvi və diplomatik dəstək sözün həqiqi mənasında təmənnasız qardaşlığın təntənəsi idi. Vətən müharibəsi dövründə Türkiyənin dövlət strukturları, bütün xalqı Azərbaycanın qələbəsi üçün bütün sferalarda böyük əzmkarlıq göstərdilər. İqtidar və müxalifət partiyalarını təmsil etməsindən asılı olmayaraq bütün siyasi qüvvələr də Azərbaycanın yanında oldular. Nə qədər beynəlxalq təzyiqlər olsa da, Türkiyə qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədi. Türkiyənin siyasi dəstəyi sayəsində bir çox dövlətlər qarışa bilmədi. Bu amil bizim qələbə qazanmağımıza çox böyük təsir göstərdi. Bütün dünya Azərbaycan-Türkiyə qardaşlığının bir daha şahidi oldu. Birliyimiz düşmənlərimizə göz dağı verdi.

Bir neçə gün öncə ordumuzun Qarabağ ərazisində keçirdiyi lokal antiterror tədbirləri zamanı da Türkiyə birmənalı olaraq dövlətimizə dəstək verdi. Antiterror tədbirlərinin başladığı gün Nyu-Yorkda BMT Baş Assambleyasının 78-ci iclasında çıxışı zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirdi ki, "Biz Ermənistandan başda Zəngəzur koridorunun açılması olmaqla, verdiyi sözləri yerinə yetirməsini gözləyirik. Artıq hər kəsin qəbul etdiyi kimi, Qarabağ Azərbaycan torpağıdır və bundan başqa bir status qəbul edilməyəcək".

Azərbaycan dövləti hər zaman Türkiyənin istər Vətən müharibəsi dövründəki, istərsə də lokal antiterror tədbirləri zamanı davranışlarını yüksək qiymətləndirib. Naxçıvanda baş tutan mətbuata bəyanat zamanı Prezident İlham Əliyev Türkiyə Prezidentinin Nyu-Yorkdakı çıxışına toxunub. Dövlət başçısı bildirib: "Bu hadisə baş verəndə Siz Amerikada, Nyu-Yorkda idiniz, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında iştirak etmişdiniz və orada dünyanın ən ali kürsüsündən Azərbaycan dövlətinin maraqlarını ifadə edən bəyanatlar vermişdiniz, ədalətli bəyanatlar vermişdiniz, tamamilə beynəlxalq hüquqa əsaslanmış bəyanatlar vermişdiniz: Qarabağ Azərbaycan torpağıdır. Bu, həm həqiqətdir, eyni zamanda, beynəlxalq hüquqa tam uyğundur. Eyni zamanda, Türkiyə tərəfindən göstərilən növbəti qardaşlıq addımıdır. İkinci Qarabağ müharibəsi zamanı Siz və bütün Türkiyə xalqı bizim yanımızda idi. Müharibənin ilk saatlarında "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməyiniz bir çoxları üçün ciddi siqnal idi, mesaj idi. Azərbaycan xalqı bu siyasi və mənəvi dəstəyi heç vaxt unutmur və unutmayacaq".

### Regionda birgə addımlar atılır

Beləliklə, regionda baş verən proseslər daim Türkiyənin diqqətindədir və qardaş ölkə hər zaman birmənalı olaraq Azərbaycanı dəstəkləyir. Türkiyə-Azərbaycan münasibətləri uğurlu regional və beynəlxalq əməkdaşlıq nümunəsi olmaqla yanaşı, həm də dostluq və qardaşlıq örnəyi kimi xarakterizə edilir. Bununla yanaşı, Azərbaycan-Türkiyə münasibətləri davamlı inkişaf dinamikasına malikdir. Bu iki ölkəni bir-birinə bağlayan strateji əsaslar xalqlararası dərin inteqrasiya, ortaq milli keçmişə və dəyərlərə malik olmaq, eyni zamanda, milli maraqların uzlaşdırılmasıdır. Bütövlükdə, hər bir sahədə inkişaf edən Azərbaycan-Türkiyə dostluğu və strateji tərəfdaşlığı dünya üçün unikal bir nümunəyə çevrilib.

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər







"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. 2023-cü il sentyabrın 26-da YAP Yardımlı rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Yardımlı rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Daha sonra təşkil olunan dəyirmi masada Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısında müstəsna xidmətlərindən bəhs olunub.

# Bədbəxt hadisə, yoxsa məqsədli təxribat?

## Ketrinin yuxusuna haram qatan "Parisli dərviş" də ola bilər...

*NARDAR*

Sentyabrın 25-də Xankəndi şəhəri yaxınlığında yanacaqdoldurma məntəqəsində baş verən partlayış nəticəsində çoxlu sayda ölən və yaralananların olduğu bildirilir. Bununla əlaqədar yaralanan şəxslərə yardım məqsədilə ilkin olaraq 200 nəfərin müalicəsi üçün yanığa qarşı tibbi ləvazimatlar, sarğı materialları, əlcəklər, dərman preparatları (spreylər, kremlər, ağrıkəsicilər, antibiotiklər və s.) daşıyan təcili tibbi yardım maşını Ağdam-Əsgəran-Xankəndi yolu vasitəsilə yola salınıb.




Hələ ki, sözügedən partlayışın baş verməsinin səbəbləri barədə dəqiq məlumat olmasa da, bunun böyük ehtimalla təxribat olduğunu söyləmək mümkündür. Ekspertlər hesab edirlər ki, hadisənin erməni separatçılarının qalıqları və onların xarici havadarları tərəfindən təşkil edilməsi istisna deyil. Burada əsas diqqətçəkən məqamlardan biri partlayışdan sonra bir sıra fərqli nüansların ortaya atılması oldu. Əgər partlayış hazırlanmış təxribatın nəticəsidirsə, bunun arxasında ən əsas sülhə mane olmaq kimi çirkin bir niyyət dayanır. Bütün bunların fonunda partlayışın arxasında öz terrorçu mahiyyətindən əl çəkməyənlərin dayandığını ehtimal etmək olar. Digər tərəfdən, ən əsas şübhələr Cənubi Qafqaza sülhün gəlməsinə mane olmağa çalışan "xarici qüvvələr"ə tərəf yönəlir. Hər ay Azərbaycanı "BMT-yə şikayət edən" bu qüvvələr onsuz da son addımları ilə yaranan situasiyadan, əsasən də Ermənistanın sülh anonslarından narahatlıqlar keçirir. Məsələn, bir neçə gün öncə Laçın postunun önündən kor-peşman geri qayıdan "Paris TIRları"nın içində gizlənən "çirkin niyyət" özünü fərqli şəkildə biruzə verə bilər. Beləliklə, bu təxribatın ermənilərin xarici havadarının "xeyir-duası" ilə təşkil olunması ehtimalı gündəmə gəlir. Sirr deyil ki, həmin "dairə" və ya "ölkə" Ermənistanın, xunta rejiminin əli ilə regiona gəlmək üçün dəridən-qabıqdan çıxmışdı. Azərbaycanın qətiyyətli mövqeyi isə buna imkan vermirdi. Hətta Qarabağın erməni sakinlərinə guya "canıyananlıq edən" belələri üçün öz maraqları ən öndə gəlir. Bir neçə gün öncə Azərbaycan Ordusunun keçirdiyi antiterror tədbirləri nəticəsində Qarabağdakı qanunsuz rejimin təslim olması həmin dairələrin işini çətin duruma salıb. Çünki artıq Qarabağın erməni sakinlərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyası başlayıb. Bu istiqamətdə praktiki addımlar atılır. Ona görə də, mümkün təxribatlar törətməklə Azərbaycanı hədəfə almağa çalışırlar. Təsadüfi deyil ki, Xankəndidə yanacaqdoldurma məntəqəsində partlayış baş verdikdən sonra bəziləri saxta narahatlıqlarını "həyəcanla" ifadə edirdilər. Məsələn, partlayış baş verən gecə deyəsən, Fransanın xarici işlər naziri Ketrin Kolonnanın gözünə yuxu getməyib. Deyəsən, o hamıdan əvvəl bu partlayışdan xəbər tutubmuş. O, özünün X hesabında yazıb: ""Dağlıq Qarabağ, bütün düşüncələrim bu axşam yanacaq anbarında baş verən partlayışın qurbanlar ilə. Fransa təcili yardım göndərməyə hazırdır. Azərbaycan humanitar yardımın dərhal əldə olunmasını təmin etməlidir". Bu, üç cümlədə Fransanın məqsədi açıq-aydın görünür. Qeyd edildiyi kimi, Azərbaycan aprelin 23-də Laçın sərhəd nəzarət-buraxılış məntəqəsi yaratdıqdan sonra Fransa nümayəndələrinin Qarabağa qanunsuz səfərlərinin, daşımaçılığının qarşısı alınmışdı. İndi isə Xankəndidəki partlayışdan istifadə edib "humanitar yardım" adı ilə Qarabağa yenidən daxil olmağa çalışırlar. Kalonnanın yuxusuna haram qatan "Parisli dərviş"in partlayışda əlinin olub-olmaması isə araşdırmalarla ortaya çıxacaq...

# Sülh üçün yaranan yeni imkanlar

## Ermənistan bu şansdan istifadə etməlidir

*M.ABDULLAYEV*

Respublikamızın Qarabağ bölgəsində sentyabrın 19-da başladığı və cəmi 23 saat ərzində uğurla tamamladığı lokal antiterror tədbirlərindən sonra Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesində iştirak edən vasitəçilərin fəallıqlarını artırdıqları müşahidə olunur. Bu ilin mayında Azərbaycan və Ermənistanın XİN rəhbərləri səviyyəsində görüş təşkil edən ABŞ yenidən danışıqların aktivləşməsinin tərəfdarı kimi çıxış edir. Dövlət Departamentinin mətbuat katibi Metyu Miller bildirib ki, ABŞ Azərbaycanla Ermənistan arasında sülh üçün bütün dəstəyini verməyə davam edir. "Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında gələn həftə görüş baş tutacağına dair məlumat verildi. Bu görüşün nəticələrinin iki ölkə arasındakı uçurumu aradan qaldıracağını düşünürük", - deyə o qeyd edib.

**ABŞ-ın proseslərdə fəal yer almaq istəyi**

Qeyd edək ki, postmüharibə mərhələsində Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesində aktiv iştirak edən dövlətlərdən biri məhz ABŞ-dır. Bütövlükdə Azərbaycanla ABŞ arasında mühüm siyasi dialoq mühiti mövcuddur. Hər iki ölkənin rəhbərliyi arasında Cənubi Qafqazda sülhyaratma prosesi ilə bağlı mütəmadi müzakirələr aparılır. Deyə bilərik ki, bu mövzuda dövlətimizin başçısı ilə ABŞ rəhbərliyi arasında səmərəli diplomatik dialoq formalaşıb. Məsələn, ABŞ dövlət katibi Azərbaycan Prezidentinə sentyabrın 19-da zəng edib. Telefon söhbəti zamanı Azərbaycanın Qarabağ bölgəsində hazırkı vəziyyət ətrafında fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı antiterror tədbirlərini keçirməkdə ölkəmizin məqsədinin nədən ibarət olduğunu qarşı tərəfin diqqətinə çatdırıb. Müzakirələrdə bir sıra digər məsələlərlə yanaşı, Bakı ilə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri arasında birbaşa dialoqun Amerika Birləşmiş Ştatları tərəfindən dəstəkləndiyi bildirilib.

**Azərbaycan sülh gündəliyinə sadiqdir**

Azərbaycan bütövlükdə sülh çağırışlarını birmənalı şəkildə dəstəkləyir. Qalib ölkəmiz postmüharibə dövründə dəyişməz sülh gündəliyinə malikdir. Əslində, ölkəmizin müharibə başa çatandan sonra regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün nümayiş etdirdiyi davranışların dünya tarixində analoqu yoxdur - o baxımdan ki, döyüş meydanında düşmən kapitulyasiya sənədini imzalamağa məcbur edən respublikamız qarşısına bundan hansısa imtiyazlar qazanmaq məqsədi qoymayıb. Təxminən 10 min kvadratkilometrdən çox ərazilərimizin Ermənistan tərəfindən dağıdılmasına, insanlarımızın çəkdiyi zülmlərə baxmayaraq, biz Ermənistana yenə də sülh təklifləri göndəririk. Postmüharibə dövründə respublikamız qarşı tərəfə beş bənddən ibarət sülh paketi təqdim edib. Bu paket hansısa subyektiv istəklər nəzərə alınmaqla hazırlanmayıb, əksinə orada sırf beynəlxalq normalara istinad olunub. Sənəddə beynəlxalq hüququn beş əsas prinsipi, xüsusən də ölkələrin ərazi bütövlüyünün qarşılıqlı tanınması, gələcəkdə ərazi iddialarından çəkinmək, güc tətbiq etməmək və ya güc tətbiq etmək hədəsindən çəkinmək, dövlət sərhədlərinin müəyyən edilməsi və kommunikasiyaların açılması müddəaları öz əksini tapıb. Bunlar iki ölkə arasında sülh sazişinin imzalanması və sərhədlərin müəyyənləşdirilməsi üçün baza prinsipləri kimi əsas götürülə bilər.



**Biz təklif edirik ki...**

Ötən üç ildə Azərbaycanın davamlı sülh təşəbbüslərinə məğlub Ermənistandan adekvat cavab gəlməyib. Əksinə, məğlub ölkə müxtəlif manipulyasiyalara əl atmaqla sülh prosesini dalana çəkməyə çalışıb. O cümlədən də Ermənistan üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərdən yayınmaqla silahlı qüvvələrinin bir hissəsini Azərbaycan ərazilərində saxlamaqda davam edirdi. Separatçı xunta rejiminin sərəncamında olan həmin qeyri-qanuni hərbi birləşmələr təxminən 10 minlik bir kontingenti əhatə edirdi. Ermənistana məxsus qeyri-qanuni silahlı birləşmələrin Qarabağ bölgəsində qalması sülh prosesinin irəliləməsinə mane olan əsas amillərdən biri idi.

Azərbaycanın cəmi bir gün ərzində uğurla tamamladığı lokal antiterror tədbirlərinin nəticəsi olaraq əldə olunan razılaşmalar onu deməyə əsas verir ki, artıq regionda yeni reallıqlar yaranıb. Respublikamızın şərtlərinə uyğun olaraq qəbul edilən razılaşmaya əsasən Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir. Beləliklə də, sülh prosesinin irəliləməsi üçün yeni imkanlar yaranıb və bu imkanlardan maksimum dərəcədə faydalanmaq lazımdır. Prezident İlham Əliyev 20 sentyabr 2023-cü il tarixində xalq etdiyi müraciətində ölkəmizin sülh istəyini bir daha qətiyyətlə ifadə edərək vurğulayıb: "Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın".

# Enerji əməkdaşlığının yeni səhifəsi

## İğdır-Naxçıvan qaz kəməri ildə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir

*MÜBARİZ*

Hazırda kifayət qədər yüksək səviyyədə olan Azərbaycan-Türkiyə münasibətləri çoxtərəfli xarakterə malikdir. Qarşılıqlı maraqlar əsasında qurulan əlaqələr ən müxtəlif sahələri əhatə edir. Ötən il iki ölkə arasında ticarət dövriyyəsi 6 milyard dollardan çox olub. Cari ilin əvvəlindən bəri isə bu həcm daha 40 faiz artıb. Həm Türkiyə, həm də Azərbaycan qarşılıqlı ticarət dövriyyəsini yaxın perspektivdə 15 milyard dollar və bundan daha yüksək səviyyəyə qaldırmaqla bağlı hədəf qoyublar. Artım dinamikası bu hədəfə çatılmasının tam real olduğunu deməyə əsas verir. O cümlədən imzalanan yeni sənədlər və icrasına başlanan layihələr qarşılıqlı fəaliyyət sferalarının genişlənməsinə münbit zəmin formalaşdırır. Bu günlərdə icrasına start verilən layihələrin sırasına daha biri də əlavə olunub. Söhbət sentyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə təməli qoyulan İğdır-Naxçıvan qaz kəməri layihəsindən gedir.

### Qlobal əhəmiyyətli enerji layihələri

Enerji sektorunda əməkdaşlıq iki ölkə arasında iqtisadi əlaqələrin mühüm qolunu təşkil edir. İndiyədək Azərbaycan və Türkiyənin birgə səyləri sayəsində bir neçə nəql marşrutunun yaradılması iki ölkə arasında enerji sektorunda fəal əməkdaşlığın göstəricisidir. Ötən əsrin 90-cı illərinin sonlarında Xəzər və Qara dənizləri birləşdirən Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi enerji resurslarının nəql marşrutlarının şaxələndirilməsi baxımından çox mühüm əhəmiyyət daşıyan hadisə idi. Daha sonra 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəməri istifadəyə verildi. Bu gün Bakı-Tbilisi-Ceyhan Azərbaycan neftinin Avropa bazarlarına daşınması üçün əsas nəql marşrutudur. Əlamətdar haldır ki, bu gün Bakı-Tbilisi-Ceyhandan digər ölkələr də faydalanırlar.

### Cənub Qaz Dəhlizinin ən mühüm seqmentlərindən biri

2007-ci ildə Azərbaycan və Türkiyənin iştirakı ilə daha bir nəql marşrutu - Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara buraxılıb. Bakı-Tbilisi-Ərzurum istifadəyə verilsə də, "Şahdəniz" yatağının zəngin ehtiyatlarının Avropaya çatdırılması üçün daha böyük həcmli yeni dəhlizin yaradılmasına ehtiyac var idi. Yeni, daha böyük həcmli marşrut kimi yenə də qardaş Türkiyədən keçən Cənub Qaz Dəhlizi seçilib. Cənub Qaz Dəhlizinin ən mühüm seqmentlərindən birini Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) təşkil edir. TANAP kimi önəmli layihənin icrasına heç də asanlıqla nail olunmayıb. Başlanğıcda layihənin icrasına həm siyasi, həm də praktiki müstəvidə bir sıra əngəllər var idi. Belə olan halda qardaş ölkələr - Azərbaycan və Türkiyə bütün məsuliyyəti öz üzərlərinə götürüblər və həlledici qərarlar veriblər. Beləliklə, TANAP layihəsi ilə bağlı Azərbaycan ilə Türkiyə arasında anlaşma memorandumu 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. Layihə üzrə yekun investisiya qərarı isə 2013-cü il dekabrın 17-də qəbul edilib. 2015-ci ildə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə Qarsda keçirilən təməlqoyma mərasimindən sonra boru kəmərinin inşasına başlanılıb və bütün işlər nəzərdə tutulan vaxtda uğurla yekunlaşıb.






Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans Adriatik Qaz Boru Kəmərinin (TAP) inşası 2020-ci ilin dekabrında tamamlandı. 2021-ci ilin əvvəlindən başlayaraq Xəzərin Azərbaycan sektorundan çıxarılan "mavi yanacaq" Türkiyədən keçməklə Avropa ölkələrinə çatdırılır. Cari ildə Azərbaycan bu marşrutla Avropa bazarlarına mavi yanacaq ixracının həcmini 12 milyard kubmetrə çatdırmağı hədəfləyib. Perspektivdə isə bu həcm iki dəfəyədək artırılacaq.

### Hədəf 12 milyard kubmetrdir

İki qardaş ölkə regional və qlobal əhəmiyyət daşıyan enerji əməkdaşlığını bundan sonra da genişləndirmək niyyətindədirlər. Prezidentlərin iştirakı ilə təməli qoyulan İğdır-Naxçıvan qaz kəməri layihəsi ilə Azərbaycanla Türkiyənin enerji əməkdaşlığında yeni səhifə başlayır.

### Naxçıvanın qaz təchizatının bir mənbədən asılılığına son qoyulacaq

İndiyədək blokada şəraitində qalan Naxçıvanın mavi yanacaq təminatı İran üzərindən reallaşdırılıb. Təməli qoyulan İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə imkan verməklə onun bir mənbədən asılılığını aradan qaldırmış olacaq. 2020-ci il dekabrın 15-də Ankarada Azərbaycan və Türkiyə arasında İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il 10 fevral tarixli sərəncamına əsasən isə İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə bu il iyunun 5-də qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet layihələri sırasında yer alıb.

Boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5 kilometr, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Boru kəməri gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcək. Gələcəkdə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkündür.



# Azərbaycan hərbi potensialını artırır

## Türkiyə Silahlı Qüvvələri ilə fəal əməkdaşlıq həyata keçirilir

*NARDAR*

Müasir Azərbaycanımızda ordu quruculuğu prosesi olduqca yüksək təşəkkül tapıb. Bunun nəticəsidir ki, bu gün çox güclü ordumuz var. 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi də məhz uğurlu ordu quruculuğunun ortaya çıxardığı reallıqlardan idi. Eləcə də, bir neçə gün öncə 24 saat ərzində keçirilən lokal antiterror tədbirləri də rəşadətli ordumuzun gücünün növbəti nümayişi oldu.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, səmərəli nəticələr əldə olunur. Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər ərzində bu sahədə həyata keçirilən davamlı islahatlar və məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda çox sürətlə və yüksək səviyyədə aparılan ordu quruculuğu işi artıq öz bəhrəsini verib. Bunun qanunauyğun nəticəsi kimi, Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu

### Regionun ən güclü ordusu

dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə yiyələnib. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir silahlı qüvvələri sayılır.

### Yeni yaranan Naxçıvan Bərpa-istehsalat hərbi kompleksi...

Müharibə bitsə də, Azərbaycanda ordu quruculuğu prosesi davam edir və silahlı qüvvələrimiz müasirləşdirilir. Daha çox qardaş Türkiyə modelinə uyğunlaşdırılan ordumuz müasir silahlarla təchiz olunur, komplektləşdirilir. Bütövlükdə, iki qardaş ölkənin hərbi əməkdaşlığı isə yüksək səviyyədədir. Bu fakt Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sentyabrın 25-də ölkəmizə rəsmi səfəri zamanı bir daha təsdiqləndi. Belə ki, həmin gün Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışında iştirak ediblər. Verilən məlumata görə, hərbi kompleks müxtəlif növ tank, zirehli döyüş maşını və transportyorların, artilleriya qurğu və sistemlərinin, hava hücumundan müdafiə vasitələrinin, atıcı silahların, mühəndis texnikasının, rabitə avadanlıqlarının, optik cihazların təmiri və modernləşdirilməsini, müxtəlif növ daxiliyanma mühərriklərinin təmirini və stend üzərində yoxlanılmasını, qeyd olunan bütün vasitələr üzərində detal və avadanlıqların dəyişdirilməsini və test edilməsini həyata keçirmək imkanına malikdir. Hərbi kompleks 1 mərkəzdən, 8 təmir müəssisəsindən və 10 sahədən ibarətdir. Burada müxtəlif növ texnikaların təmiri və bərpası üçün 300-dən çox avadanlıq quraşdırılıb. Eyni zamanda, idarətmə, yataqxana və təminat binası inşa edilib.

Hərbi hissənin zirehli və avtomobil texnikaları parkında texniki nəzarət məntəqəsi, texniki qulluq və təmir məntəqəsi binaları, ümumi texnika tutumu 284 yer olan 4 saxlanc, yanacaqdoldurma, yuma və gündəlik texniki qulluq məntəqələri inşa olunub. "Naxçıvan Mərkəzi Təlim-Tədris Sahəsi" taktiki və idman sahələrindən, atış, artilleriya, mühəndis, kəşfiyyat, rabitə, kimya və qarovul şəhərciklərindən ibarətdir. Kompleksə yüksək səviyyədə təchiz olunmuş idman şəhərciyi də daxildir.



### "Komando" birlikləri Türkiyə təcrübəsi əsasında formalaşdırılıb

Qeyd edildiyi kimi, Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı ordumuzun mövcud potensialının daha da artırılmasında xüsusi rol oynayır. Məsələn, ötən dövrdə silahlı qüvvələrimizdə "Komando" birliklərinin yaradılması olduqca əhəmiyyətli hadisələrdən sayılır. Məlumdur ki, 44 günlük Vətən müharibəsi zamanı qazanılmış təcrübə çevik və sürətli manevrə malik, yüksək dağlıq və çətin şəraitdə döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirə biləcək yeni birləşmələrin yaradılması zərurətini ortaya qoyurdu. Məhz bu zərurət Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissələrinin yaradılmasını aktuallaşdırdı. Buna görə də Ali Baş Komandanın tapşırığı ilə ordumuzda yeni təyinatlı "Komando" hərbi hissələri yaradılır. "Komando" hərbi hissələri yüksək fiziki və döyüş hazırlığına malik peşəkar hərbi qulluqçularla komplektləşdirilir. Ekspertlər hesab edirlər ki, "Komando" ixtisas kursu çox çətin kursdur. Bu kursda təlimlər "Görünmədən görmək, ölmədən dönmək" şüarı altında reallaşdırılır. İxtisas kursu dərin qarda və soyuqda döyüş əməliyyatı, quru komando əməliyyatı, su üstü komando əməliyyatı, hava-desant əməliyyatı, yaşayış məntəqələrində antiterror əməliyyatı mərhələləri üzrə keçirilir. "Komando" hərbi birlikləri Türkiyə Silahlı Qüvvələrinin təcrübəsi əsasında yaradılıb.

Beləliklə, Azərbaycanda ordu quruculuğu prosesi davamlı şəkildə inkişaf etdirilir. Silahlı Qüvvələrimiz isə bundan sonra da qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirməkdə davam edəcək.

# "Yaşıl enerji" mərhələsi...

## Azərbaycan bu sahədə istehsal gücünü genişləndirməyə çalışır

Qarşılıqlı münasibətlərini Şuşa Bəyannaməsi rəsmi olaraq müttəfiqlik səviyyəsinə yüksəldən Azərbaycan və Türkiyə birgə fəaliyyət gündəliyinin aktual məsələlərini qlobal trendləri, qarşıya çıxan yeni çağırışları nəzərə almaqla müəyyənləşdirirlər. Sentyabrın 25-də "Azərbaycan Respublikasında və Türkiyə Respublikasında bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi sahəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi və Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi arasında əməkdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması bunu bir daha təsdiqləyir. Sənədi prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov və Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar imzalayıblar. Beləliklə də, iki qardaş ölkənin uzun illər ərzində davam edən və yaxşı nəticələr verən enerji əməkdaşlığının yeni istiqamətinin təməli qoyulub.

### Dünyada yeni enerji keçidi mərhələsi

Hazırda dünyada bir sıra mühüm sahələr üzrə transformasiyalar mərhələsi yaşanır. Qlobal miqyasda baş verən intensiv texnoloji dəyişikliklər, resurslardan səmərəli istifadə olunması zərurəti, BMT tərəfindən bəyan olunan sıfır emissiyalı iqtisadiyyat quruculuğuna keçid hədəfi fonunda yaranan yeni çağırışlardan biri də bərpa olunan mənbələrdən elektrik enerjisi istehsalının artırılması ilə bağlıdır. Deyə bilərik ki, qlobal iqtisadiyyatda yeni mərhələ - "yaşıl enerji" dövrü öz yerini möhkəmləndirməkdədir. Ekspertlərin bildirdiklərinə görə, alternativ mənbələrdən enerji istehsalı növbəti beş ildə 50 faiz artaraq 2025-ci ildə dünya üzrə elektrik istehsalının 33 faizini təşkil edəcək. Ümumilikdə, 2025-ci ildə elektrik enerjisi istehsalının artım gücünün 95 faizi bərpa olunan enerji mənbələrinin payına düşəcək. Ən çox artım isə günəş və külək enerjisi istehsalında gözlənilir - müvafiq olaraq 60 və 30 faiz səviyyəsində.

Təmiz enerjiyə sürətli keçid zərurəti Avropa İttifaqının hazırladığı "REPowerEU" planında da öz əksini tapıb. "Qoca qitə"nin xilas planı kimi səciyyələndirilən bu sənəddə bərpa olunan enerjiyə sürətli keçidin təmin olunması nəzərdə tutulub. Hesab olunur ki, enerji transformasiyası yanacaq idxalının azalmasına və qiymətlərin aşağı düşməsinə müsbət təsir göstərəcək. Bu məqsədlə hidrogen və biometan istehsalının artırılması, müəyyən kateqoriyalı binalarda Günəş enerjisi panellərinin quraşdırılması, külək enerjisi sektorunun rəqabət qabiliyyətinin artırılması, Günəş, külək və termal enerji texnologiyaları üzrə dəyər zəncirlərinin gücləndirilməsi, icazə sisteminin sadələşdirilməsi və digər tədbirlər nəzərdə tutulur.



### Naxçıvanın zəngin potensialı

Enerji transformasiyası Azərbaycanın da gündəliyinə dayanan vacib məsələlər sırasındadır. Karbohidrogen resursları ilə zəngin olan respublikamız da elektrik enerjisi istehsalında "yaşıl enerji"nin xüsusi çəkisinin artırılmasını hədəfləyib. Bu da onunla bağlıdır ki, respublikamız bərpa olunan enerji mənbələri ilə kifayət qədər zəngin olan bir diyardır. Ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki baxımdan istifadəsi mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı 27000 MVt, o cümlədən, külək enerjisi üzrə 3000 MVt, Günəş enerjisi üzrə 23000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. Eyni zamanda, Azərbaycan dövləti bu potensialdan daha səmərəli istifadə olunmasına güclü siyasi iradə nümayiş etdirir.

Azərbaycanda 2013-2019-cu illər ərzində külək enerjisi istehsalı 131 dəfə, Günəş enerjisi istehsalı isə 55 dəfə artıb. Külək və Günəş enerjisi istehsalının növbəti illərdə artan templə davam edəcəyi gözlənilir. Ölkəmiz növbəti illərdə bərpa olunan enerjinin ümumi istehlakda payını artırmaq niyyətindədir. Bu sahədə 2030-cu ilədək olan hədəf bərpa olunan enerjinin ümumi istehlakda payının 30 faizdən çox artırılmasına nail olmaqdan ibarətdir. Potensial var və son illər də Azərbaycan bu sahədə istehsal gücünü genişləndirməyə çalışır.

Azərbaycanın bərpa olunan enerji mənbələri əsasən Abşeron yarımadası, Xəzərdə və işğaldan azad olunmuş ərazilərdə cəmləşib. O cümlədən qədim diyar olan Naxçıvan da belə mənbələrlə kifayət qədər zəngindir. Burada həm Günəş, həm külək, eyni zamanda, su elektrik stansiyalarının inşası üçün böyük potensial var. Bu potensialdan istifadə olunması üçün zəruri infrastruktur qurulmalıdır. Yuxarıda bəhs olunan memorandum çərçivəsində nəzərdə tutulan işlərin görülməsi sayəsində gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində yaşıl enerji ixracını həyata keçirmək mümkün olacaq. "Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan yaşıl enerji zonasına çevrilə bilər", - deyə Prezident İlham Əliyev sentyabrın 25-də Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimindən sonra mətbuata verdiyi bəyanatında vurğulayıb.



*Mübariz FEYİZLİ*

# İnformasiya savaşı davam edir...

## Azərbaycana qarşı sülh və insanlıq əleyhinə cinayətlər

44 günlük Vətən müharibəsində Azərbaycanın qələbəsi regionda yeni reallıqların ortaya çıxmasına səbəb oldu. Bu reallıq təkcə Azərbaycan üçün deyil, elə Ermənistan üçün də yeni imkanlar yaradır. Tarixi qələbə Azərbaycanın gücünün göstəricisi idi. Tarixə nəzər yetirsək görərik ki, qələbə qazanan ölkələr müharibədən sonra iqtisadi çətinliklərlə qarşılaşırlar. Ancaq Azərbaycanda bu belə olmadı. Belə ki, müharibənin bitməsindən qısa bir müddət sonra artıq azad olunmuş ərazilərimizdə tikinti-bərpa, quruculuq işlərinə başlanıldı. Standartlara uyğun yollar, körpülər çəkilir, yaşayış və qeyri-yaşayış binaları tikilir. ən əsası isə Azərbaycan bütün bu meqa işləri özü gücünə, öz maliyyə resursları hesabına həyata keçirir.

Təbii ki, Azərbaycan dövləti hər zaman sülhə və əməkdaşlığa yüksək dəyər verir. Vətən müharibəsindən ötən dövrdə də qalib ölkə olsaq da sülhün təşviqi bizim üçün prioritet olub. Bütün bunlarla yanaşı, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətlərini də unutmaq olmaz. Birinci Qarabağ müharibəsində olduğu kimi, 44 günlük Vətən müharibəsində də Ermənistan silahlı qüvvələri bəşəri dəyərləri tapdadı, müharibə cinayətləri törətdi. İstər həmin dövrdə, istərsə də post-müharibə dövründə Azərbaycan mövcud həqiqətlərin, erməni vandallığının dünya ictimaiyyətinə çatdırılması istiqamətində işləri davam etdirdi. İllərdir davam edən təbliğat işləri daha da gücləndirildi. Dünya ictimaiyyəti ermənilərin iç üzünü, törətdikləri vəhşilikləri görməyə başladı.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti üzrə hazırlanmışdır



Prezident İlham Əliyev hər zaman Azərbaycan həqiqətlərini dünyaya çatdırılması işində fəal şəkildə iştirak edib. Ölkə başçısı İkinci Qarabağ müharibəsinin gedişi zamanı dünyanın 30-a yaxın ən tanınmış KİV-inə müsahibə verdi. Prezident bütün həqiqətləri dünya ictimaiyyətinin, beynəlxalq aləmin diqqətinə çatdırdı. Bu fəaliyyət müharibədən sonra da uğurla davam etdirildi - 2021-ci il fevralın 26-da - Xocalı soyqırımının ildönümündə yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirildi. Dörd saatdan çox davam edən mətbuat konfransında Prezident İlham Əliyev jurnalistlərin suallarını ətraflı şəkildə cavablandırdı, vacib məsələlərə toxundu, bir sıra önəmli mesajlar verdi. Heç təsadüfi deyil ki, hər dəfə Azərbaycan əleyhinə qərəzli addımlar atan “Amnesty International” təşkilatı da faktlar qarşısında aciz qalaraq Ermənistanın xain zərbələri nəticəsində Azərbaycanın şəhər və kəndlərində 72 dinc sakinin öldürüldüyü raket hücumlarını sənədləşdirdi.



Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən millət vəkili Elman Məmmədovun sözlərinə görə, Azərbaycanın 44 günlük müharibədə əldə etdiyi tarixi zəfər xalqımıza əbədi qalibiyyət qazandırdı: “Məğlub vəziyyətə salınmış bir xalqı qalib xalqa çevirdi, əcdadımızdan bizə genetik miras qalan döyüşçü kodlarımızı oyatdı, savaşçı xalq olduğumuzu , müharibəni də müharibə əxlaqı çərçivəsində aparmağı bacaran xalq olduğumuzu dünyaya sübut etdi. Bütün bunlar milli psixologiyamızda, milli xarakterimizdə yeni mental keyfiyyətlər yaratdı. Ona görə də Ali Baş Komandanımız deyir ki, Azərbaycan xalqı döyüşkən, öz haqqını qorumağı bacaran xalqdır. Bunlar qələbəmizin xalqımıza qazandırdığı mənəvi-psixoloji üstünlüklərdir. Bu üstünlüklərimizlə özümüzü yenidən bir daha ermənilərə, onların havadarlarına və bütün dünyaya tanıtdıq. Məsələnin digər tərəfinə gəldikdə isə işğal altında olan 20 faiz torpaqlarımızı azad edərək ərazi bütövlüyümüzü təmin etdik”.

Deputat qeyd edib ki, Vətən Müharibəsindən sonra 30 illik işğal dövründə işğalçı Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş bütün növ cinayətlər üzrə müvafiq beynəlxalq instansiyalara müraciətlər edilib: “Həqiqətlərin dünyaya çatdırılması üçün bu günə qədər görülən işlər davam etdirilməlidir. Düşünürəm ki, Azərbaycan bunu məharətlə edir. Yəni həqiqətlərin dünyaya çatdırılması üçün ən müxtəlif alət və vasitələrdən çox yaxşı istifadə etməyi bacarır. Buraya siyasi-diplomatik, informasiya resursları və s. vasitələr də daxildir.

Bu gün də regionda nüfuzu artan, dünyanın aparıcı dövlətləri tərəfindən dəstəklənən Azərbaycan Ermənistanın müharibə cinayətləri ilə bağlı beynəlxalq ictimaiyyəti məlumatlandırmaq üçün çox güclü iş aparır. Ona görə də, inanırıq ki, Ermənistanın bu cinayətləri cavabsız qalmayacaq. Çünki Azərbaycan dövləti tərəfindən bütün bu cinayətlər sənədləşdirilərək müvafiq beynəlxalq təşkilatlara təqdim olunur. Odur ki, Ermənistan törətdiyi bütün cinayətlərinə görə mütləq cəzasını alacaq”.

*Yeganə BAYRAMOVA*

# İŞİD təhdidi geri dönür?

*Günel ABBAS*

## Terror təşkilatının yüksək rütbəli komandiri saxlanılıb

2019-cu ildə süquta uğradılan İŞİD yenidən aktuallaşır. Bir zamanlar Yaxın Orta Şərqdə boy göstərən, bəzi xarici mərkəzlər tərəfindən Suriya və digər regionlarda  “qarşısıalınmaz güc” kimi xarakterizə olunan radikal terrorçu dəstə yenidən İraqda “peyda olub”. Ötən günlərdə, İraqın təhlükəsizlik xidməti Kərkük vilayətində keçirilən antiterror əməliyyatı nəticəsində İŞİD terror qruplaşmasının yüksək rütbəli komandirini saxlayıb. Bu barədə İraq departamenti məlumat yayıb. Məlumatda bildirilir ki, diqqətli kəşfiyyat işi və daimi monitorinq sayəsində terrorla mübarizə xidmətinin əməkdaşları kürd birləşməsinin əməliyyat şöbəsi ilə birlikdə terror qruplaşmasının komandiri Əbu Baharini Kərkük vilayətində saxlayıblar.

Departamentin məlumatına görə, Bahari İŞİD qruplaşmasının “xarici” adlandırılan batalyonuna rəhbərlik edib. Məlumatda, həmçinin qeyd olunub ki, əməliyyat ölkənin Baş naziri, eyni zamanda, İraq Silahlı Qüvvələrinin baş komandanı olan Məhəmməd əl-Sudaninin göstərişi ilə həyata keçirilib.

Yaxın keçmişə qısa ekskurs etsək, İŞİD-in 2004-cü ildə İraq müharibəsinin başlamasından qısa müddət sonra “Camaat əl-Tövhid vəl-Cihad” adı ilə qurulmasının şahidi olarıq. 2004-cü ilin oktyabrında Əl-Qaidəyə bağlılığını elan edərək “Tanzim Kaidat el-Cihad fi Bilad el-Rafidayn” (daha çox “İraq Əl-Qaidəsi” adı ilə tanınır) adını götürən radikal terrorçular 2006-cı ilin yanvar ayında “Ceyş ət-Taifa Əl-Mənsur”, “Ceyş Əhli-Sünnə vəl-Camaa”, “Ceyş əl-fatihin”, “Cund əs-Səhabə” kimi kiçik qruplarla birləşib “Mücahidun Şura Konseyi” adını aldı. İraq müharibəsinin qızğın dövründə Anbar, Ninəvə, Diyalə, Babil, Kərkük və Sələhəddin bölgələrində aktivlik göstərən qruplaşma üzvləri 2006-cı ilin 15 oktyabr tarixində paytaxtı Baquba şəhəri olan “İraq İslam Dövləti” adlı dövlət elan etdi. Bu tarixdən etibarən “Mücahidun Şura Konseyi” adı altında toplaşan qruplaşmaların keçirdiyi əməliyyatlar “İraq İslam Dövləti” adıyla keçirilməyə başladı.



Suriya vətəndaş müharibəsinin başlamasından bir müddət sonra həmin radikal terrorçular Suriyada Əl-Nusra Cəbhəsi (“Əl-Qaidə”nin Suriya qanadı) adı altında “peyda oldular”. 2013-cü ilin aprel ayında İŞİD əmiri Əbu Bəkr əl-Bağdadi yayımladığı səs yazısında Əl-Nusra Cəbhəsinin İŞİD tərəfindən yaradıldığı, maliyyələşdirildiyi və dəstəkləndiyi açıqlamasını verdi. Və bu tarixdən etibarən hər iki qruplaşmanın “İraq və Şam İslam Dövləti” adı altında fəaliyyət göstərəcəyini bildirdi. İŞİD-in törətdiyi qətliamlar, terror aktları haqda geniş məlumat verməyə ehtiyac yoxdur. Bütün dünya tərəfindən terror qruplaşması kimi tanınan bu qruplaşma ayrı-ayrı vaxtlarda Türkiyə, Fransa, Liviya və başqa ölkələrdə yüzlərlə dinc insanın həyatına qəsd edərək terror aktları həyata keçiriblər.



Qeyd edək ki, son aylarda İŞİD-in Yaxın Orta Şərqdəki “sərgüzəştləri” bitmək bilmir. Belə ki, ötən ay Suriyanın hökumət ordusunun 30-a yaxın əsgəri Əl-Meyadin şəhəri yaxınlığında “mücahid”lərin pusqusunun qurbanı olmuşdu. Əsgərlərlə dolu avtobusu pusquya salan İŞİD döyüşçülərdən bəzilərini hətta ələ keçirə bilmişdi. Genişmiqyaslı hücuma cavab olaraq Suriya ordusunun komandanlığı xüsusi təyinatlı dəstələrini Deyr əz-Zora, Bədia əş-Şərqiyyə səhrası bölgəsinə göndərmişdi. Bir qayda olaraq, terrorçuların mobil qrupları oradan ordunun nəzarət-buraxılış məntəqələrinə və nəqliyyat kolonlarına hücumlar təşkil edir. Göründüyü kimi, ərazidə tez-tez reydlərin keçirilməsinə baxmayaraq, özünü “xilafət” elan edən İŞİD-in fəaliyyəti tam dayandırılmayıb - hətta əldə olunan statistikaya görə, bu ilin əvvəlindən İŞİD-lə atışmalarda 400 nəfərin öldüyü bildirilib.

Politoloq İlqar Vəlizadə “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, bəzi hallarda İŞİD terror qruplaşmasının qalıqları regionda hələ də mövcuddur: “Bu qruplaşmalar zaman-zaman fəallıqlarını göstərirlər. İŞİD-in böyük infrastrukturunun olması işi çətinləşdirir. Çünki onun yalnız bir hissəsi dağıdılıb, qruplaşmanın qalıqları ara-sıra özlərini göstərirlər. Bu mənada demək olar ki, İŞİD təhdidi tam aradan qaldırılmayıb. Lakin bu, indiki halda regional təhlükəsizliyə ciddi təsir göstərmir. Qeyd etmək lazımdır ki, regional iştirakçıların öz gücü ilə onlarla mübarizə aparmaq qabiliyyəti var”.

# Nəqliyyat infrastrukturu müasirləşdirilir

## Elektrik avtobuslar dövriyyədə...

**Bakıda marşrut xəttinə ilk elektrik mühərrikli avtobus buraxılıb. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib. Nazirliyin məlumatına görə, elektrik avtobusu 5 nömrəli marşrut xəttində hərəkət edir. Marşrut xətti “20-ci sahə” - “Nəriman Nərimanov” metro stansiyası istiqamətini əhatə edir.**

**Avtobus 33 sərnişin oturacağına malikdir. Ümumi sərnişin tutumu 82 nəfər olan avtobus tam enerji toplayaraq 350 km məsafə qət edə bilir. Nəqliyyat vasitəsi müasir sərnişindaşıma tələblərinə tam cavab verir.  Elektrik avtobusun Bakı şəhərinin mövcud relyefinə uyğunluğu yoxlanılacaq. Nəticələrə əsasən elektrik mühərrikli avtobusların Bakı şəhərinin ictimai nəqliyyatında istifadəsi imkanları qiymətləndiriləcək.**

**Qeyd edək ki, paytaxtımızda nəqliyyat parkının yenilənməsi son zamanlar əsas prioritet istiqamətlərdən biri hesab olunur. Xüsusilə elektrik mühərrikli avtobusların istismarı ilk növbədə ətraf mühitin qorunması və havanın çirklənməsinin qarşısının alınması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan elektrik avtobuslarının dövriyyəyə buraxılması təqdirəlayiqdir.**

### Sayını çoxaltmaq lazımdır...

Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən nəqliyyat üzrə ekspert İlqar Hüseynli bildirib ki, Bakı şəhərində istismar müddətini bitirmiş, mühərriki köhnəlmiş kifayət qədər avtobuslar var, hansı ki, dizellə işləyir. Ekspert qeyd edib ki, həmin avtobuslar atmosferə ciddi ziyan vururlar: “Ekoloji cəhətdən təmiz olmayan bu avtobuslar havaya kütləvi şəkildə zəhərli qazın yayılmasına şərait yaradırlar. Ümumiyyətlə, bütün dünya ölkələri avtobusların elektromobilləşməsi ilə əlaqədar proseslərə start verib. “Tesla” şirkəti bu məsələdə kifayət qədər fəal iştirak edir. Təsadüfi deyil ki, ölkə rəhbəri tərəfindən verilən tapşırıq əsasında son buraxılış müddəti 3 ili keçməyən elektromobil və hibrid avtomobil növləri gömrük rüsumlarından azad edildi. Bu stimullaşdırıcı tədbir idi. Gömrük rüsumlarının ləğvi həm də ona görə idi ki, paytaxtın nəqliyyat parkı tədricən yenilənsin, elektromobillərin çoxalmasına imkan yaransın. Bu baxımdan ekologiyanın çirklənməsinin qarşısını almaq üçün elektrik mühərrikli avtobusların xətlərə buraxılması çox müsbət addımdır. Düşünürəm ki, belə avtobusların sayını çoxaltmaq lazmdır. Məsələn, digər xətlərdə işləyən avtobus şirkətlərinin də qarşısına konkret olaraq bu tələbi qoymaq olar. Gömrük rüsumlarından azad etməklə, banklarda kiçik faizli kreditlər verməklə həmin şirkətlərə də şərait yaradılsın ki, onlar da öz avtomobil parklarını yeniləsinlər və elektrik mühərrikli nəqliyyat vasitələrinə keçid etmək imkanları olsun”.





### Elektrik benzini ucuzlaşdıracaqmı?

Elektrik mühərrikli avtobusların dövriyyə buraxılmasından sonra benzinin qiymətində dəyişiklik olub-olmayacağına gəlincə, ekspert bildirib ki, bu barədə danışmaq hələ tezdir: “Fikrimcə, elektrik mühərrikli avtobusların kütləvi surətdə artması, paytaxtın avtobus parkının yenilənməsi üçün hələ bir neçə müddət lazımdır. Dünyada yanacaq növlərinin “Avro 5” standartlarına keçidi ilə bağlı ciddi tələblər var. Yanacağın “Avro 5”, “Avro 6” standarlarının tələblərinə uyğunlaşdırılması yalnız Azərbaycanda deyil, dünyanın əksər ölkələrinin diqqətindədirsə, belə qənaətə gəlmək mümkündür ki, Azərbaycanda digər yanacaq növləri ilə işləyən avtomobillərə tələbat hələ davam edəcək. Nə qədər ki, tələbat var, yaxın zamanlarda yanacağın qiymətinin ucuzlaşacağından danışmaq tezdir. Lakin bununla əlaqədar dövlətin xüsusi qərarı olarsa, yanacağın ucuzlaşması ilə bağlı Tarif Şurasına müraciət edilə bilər. Amma sırf elektrik mühərrikli avtobusların dövriyyəyə buraxılmasından dərhal sonra benzinin qiymətində ucuzlaşma yaxın deyil, uzaq perspektivdə mümkün olacaq”.

# Ağır həftənin qalibi Azərbaycan



Sentyabrın 19-da Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində lokal antiterror tədbirləri reallaşdırdı. Bu, Azərbaycanın həm hüquqi, həm də mənəvi baxımdan atdığı doğru və ədalətli addım idi. Xarici dəstəkçilərinin "sülhsevər" adlandırıb ərköyünləşdirdiyi ermənilər, 44 günlük müharibədən keçən 3 il ərzində nə sülh sazişi bağlamağa çalışdılar, nə də Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ali şərtlərini qəbul etmək istədilər. Əksinə, "revanş" arzusu ilə xaricdəki lobbi təşkilatlarını "xod"a salıb, yenidən maliyyə və silah tədarük etməyə, təxribatlar törətməyə, Qarabağda yaratdıqları qanunsuz xunta rejimi ilə bağlı xülyalar qurmağa başladılar. Bütün bunlardan sonra təbii olaraq, Azərbaycanın səbri tükəndi. Qarabağdakı silahlı qruplaşmalara, terrorçulara dəfələrlə silahı yerə qoyub dinc yolla təslim olmaq çağırışları edildi. Lakin qarşı tərəf nəinki bu müraciətləri eşitdi, əksinə, Azərbaycan ərazilərinə qeyri-qanuni şəkildə silah-sursat daşımağa, terror yuvalarının sayını artırmağa başladı. Beləliklə, Azərbaycan üçün başqa seçim imkanı qalmadı. Azərbaycan tam məntiqli şəkildə bütün dünya ölkələrinin etdiyi və ya edə biləcəyi bir addımı atdı: öz ərazilərini terrorçulardan təmizləmək üçün lokal antiterror tədbirlərinə başladı ki, 24 saatlıq qısa zaman çərçivəsində lazımi nəticələr əldə olundu.

Hərb meydanında ard-arda zəfər qazanan Azərbaycan beynəlxalq müstəvidə də eyni "performansı" təkrarlayır. Ölkəmizə qarşı "beynəlxalq təzyiq" kampaniyası başlatmağa çalışan, min bir yolla təsir imkanları axtaran bəzi güclər isə "diplomatik tatamidə" açıq məğlubiyyətə uğrayırlar. Çünki Azərbaycan bütün istiqamətlərdəki fəaliyyətini beynəlxalq hüquq standartlarından kənara çıxmadan həyata keçirir. Son hadisələrdə də Azərbaycan bütün addımlarında beynəlxalq hüquqa, konvensiyalara istinad edirdi. BMT TŞ-nin Qarabağla bağlı çağırdığı dinləmədə Azərbaycan əleyhinə çıxış edən Fransa, Almaniya kimi ölkələrin nümayəndələri öz çıxışlarında Azərbaycanın beynəlxalq qanunları pozmasına dair bircə fakt belə, göstərə bilmədilər - yalnız boş sözlərdən və əsassız ifadələrdən başqa heç bir şey səslənmədi. Erməni lobbisinin yazıb verdiyi kağızı üzündən oxuyan alman və fransız diplomatların gücü yalnız Qarabağdakı erməni əhalisinin vəziyyəti ilə bağlı böhtan atmağa və qara yaxmağa çatdı ki, onları da ölkəmizin xarici işlər naziri Ceyhun Bayramov faktlarla susdurdu. Və məlum olduğu kimi BMT TŞ-nin iclası heç bir sənəd qəbul edilmədən başa çatdı. Beləliklə, Fransanın ermənidən artıq ermənipərəst davranışı Makron hakimiyyətinin Afrikadan qovulduqdan sonra növbəti məğlubiyyəti kimi yadda qaldı.

Haqlı mübarizəsində Azərbaycana beynəlxalq səviyyədə dəstək verən ölkələr arasında Türkiyə və İsrail dövlətlərindən sonra Macarıstan da yer aldı. Macar qardaşlarımız Azərbaycanın apardığı antiterror əməliyyatlarına görə Aİ ölkələri tərəfindən ölkəmiz əleyhinə birgə bəyanat verilməsinə veto qoydu.

Bu məsələlərdə bəzi ölkələrin qərarsızlığı, bəzi hallarda isə tərəzinin gözünü "əyməsi" də diqqətdən yayınmadı - hətta həmin ölkələrin nüfuzlu siyasi analitikləri belə bu kimi məqamları tənqid hədəfinə çevirir. Məsələn, tanınmış xarici siyasət üzrə ekspert Brenda Şaffer "X" sosial şəbəkəsində postsovet məkanında müxtəlif geosiyasi münaqişələrlə bağlı ölkə mediası və beyin mərkəzlərinin qeyri-ardıcıl mövqeyini belə şərh edib: "Ukrayna öz ərazisində Rusiya qoşunlarına qarşı mübarizə aparanda KİV-in reaksiyası belə olur: "Yaşasın Ukrayna!". Gürcüstanda oxşar münaqişədə isə "İrəli, Gürcüstan" yazırlar. Ancaq Azərbaycan 10 min erməni qoşununu öz ərazisindən çıxarılmasını təmin etmək istəyəndə bu addım bəyənilmir, reaksiya belə olur: "Azərbaycanı dayandırmaq lazımdır!"

Tanınmış analitikin bu cür sərrast məntiqi qarşısında başqa nə söyləmək olar ki? Xanım Şafferin irad tutduğu məsələ - ikili standartlar, tarix boyu Şərqə münasibətdə yeridilən tərs siyasətdir.

Azərbaycana qarşı səbəbsiz qərəz, Ermənistana qarşı yersiz "canıyananlıq" isə bəzi hallarda müasir dövrdə xristian təəssübkeşliyinin hələ də qalmaqda olduğunu hiss etdirir. Ermənilər bu incə nöqtədən mümkün qədər yararlana bilirlər. 44 günlük müharibədə Ermənistan ordusu dünyanın gözü qarşısında Azərbaycanın müharibə zonası olmayan şəhərlərini, yaşayış binalarını nədən raket atəşinə tuturdu? Məqsəd çox çirkin, məkrli bir plana xidmət edirdi: uşaqların qətlə yetirilməsinə dözməyən Azərbaycan tərəfi qəzəblənsin, düşmənə öz metodu ilə onların dinc insanlarına atəş açmaqla cavab versin. Beləliklə də Azərbaycanın öz ərazisi olan Qarabağda apardığı hərbi əməliyyatlar lokal statusdan çıxaraq, Azərbaycan - Ermənistan müharibəsinə çevrilsin. Bundan o tərəfi isə artıq məlumdur. Erməni lobbi təşkilatları dünyanın xristian qütbünü bu müharibəyə cəlb etsin, "müsəlman türkləri tərəfindən öldürülən yazıq xristian ermənilərə" köməyə gəlsinlər. Lakin Azərbaycan lideri İlham Əliyevin uzaqgörən məntiqi bu eybəcər planın reallaşmasına imkan vermədi. Azərbaycan ordusu ermənilərin mülki obyektlərinə atəş açmadı. Ermənistan isə tarixə öz adını "uşaq qatili" kimi yazdırdı.

Təəssüflər olsun ki, 2020-ci ildə Ermənistan ordusunun törətdiyi müharibə cinayətləri, bəzi dost ölkələr istisna olmaqla, beynəlxalq aləm tərəfindən susqunluqla qarşılandı.

Bütün bunlardan sonra özlərini beynəlxalq hüququn qarantı kimi aparan ölkələrin öz ərazisini terrorçulardan təmizlədiyinə görə Azərbaycana söz demək haqqı ümumiyyətlə yoxdur, olmamalıdır! Çünki yazdıqları və bütün dünya ölkələrinə imzalatdıqları beynəlxalq norma və prinsipləri ilk növbədə onların özləri pozurlar.

Azərbaycan isə vicdanla, ləyaqətlə, humanizmlə, ədalətlə dövlət sərhədlərini bərpa edir, ərazilərini qanunsuz silahlı dəstələrdən təmizləyir. Artıq terrorçulardan təmizlənmiş ərazilərdə inzibati strukturların, dövlət qurumlarının və daxili nizam-intizamın qurulması proseslərinə start verilib. Ali Baş Komandanımız İlham Əliyevin söylədiyi kimi: "Heç bir qüvvə bizi haqq yolumuzdan dayandıra bilməz!"

*Murad Köhnəqala*

*Günel ABBAS*

# Ermənistanda etirazlar genişlənir

## Paşinyanın 10 gün vaxtı qalır

Ermənistanda etirazlar davam etməkdədir. Etirazçıların əsas qüvvəsi isə revanşist kütlədən təşkil olunub. Onların ritorikası erməni lobbiçilərinin və ABŞ-dakı havadarlarının sosial şəbəkələrdə paylaşdıqları ilə çox oxşardır. Bu, müəyyən məsələlərdə təsir gücü əldə etmək üçün bir vasitədir.

**Küçələri bağladılar**

İrəvanda etirazçıların aksiyaları hər ötən gün öz əhatə dairəsini bir qədər genişləndirməkdədir. Hətta etirazçılar Nikol Paşinyanın hakimiyyətdən getməsi üçün 10 gün vaxt veriblər. Ötən gün səhər saatlarında etirazçılar şəhərin mərkəzində bir sıra küçələri bağlayıblar. Ermənistan polisi baş nazir Nikol Paşinyanın istefasını tələb edən, İrəvanın mərkəzi küçələrini bağlayan etirazçıları saxlamağa başlayıb. İlk öncə polis etirazçılara mərkəzi prospekti açmaq üçün vaxt verib. Bu tələbə əməl etilmədikdə onları saxlamağa başlayıb. Məlumata görə, təxminən 10 nəfər polis bölməsinə aparılıb. Saxlanılanların sayı son məlumatlara əsasən 66-ya çatıb.

**Baş nazirə sui-qəsd cəhdləri**

Sentyabrın 24-də isə Ermənistan Milli Təhlükəsizlik Xidməti hakimiyyəti ələ keçirməyə hazırlaşmaqda şübhəli bilinən 8 nəfəri saxladığını bildirib. Ermənistanın baş naziri Nikol Paşinyana qarşı sui-qəsddə ittiham olunan "Erkrap" könüllü ittifaqının keçmiş sədr müavini, Albert Bazeyan saxlanılıb. Hazırda İrəvanın keçmiş merinə qarşı cinayət işi açılmayıb.



Bundan əvvəl erməni mətbuatında Bazeyanın sentyabrın 23-də baş nazir Nikol Paşinyana qarşı sui-qəsd və ölkədə zorakılıqla hakimiyyət dəyişikliyinə hazırlaşdığı üçün polis bölməsinə aparıldığı barədə məlumat yayılıb. Nəticədə sentyabrın 23-də axşam saatlarında öz mənzilində saxlanılıb. Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları onun evində axtarış aparıb, bəzi əşya və sənədləri götürüblər. Bundan sonra o, Milli Təhlükəsizlik Xidmətinə, daha sonra isə Daxili İşlər Nazirliyinin İrəvanın Erebuni rayonundakı təcridxanasına aparılıb.

**Etirazçılara cinayət işi açılıb**

Ermənistanın paytaxtı İrəvanda davam edən etiraz aksiyalarının əlavə 49 iştirakçısı haqqında cinayət işi açılıb - əlavə 5 nəfər isə həbs olunub. Fəallar kütləvi iğtişaşlarda iştirak etməkdə, xuliqanlıqda, dövlət məmurlarına qarşı zorakılıq tətbiq etməkdə, narkotik vasitələrin qanunsuz dövriyyəsində və soyuq silah gəzdirməkdə ittiham olunurlar. Parlamentin "Ermənistan" fraksiyasının deputatı Tadevos Avetisyan da polis bölməsinə aparılıb.

**Komendant saatı planı - tələbələr tətil edir**

Baş nazir Nikol Paşinyan komandası ilə birgə ölkədə komendant saatının tətbiqi barədə müzakirələr aparıb. Qeyd olunub ki, İrəvanda müxalifətin Ermənistan hakimiyyətini devirmək məqsədilə təşkil etdiyi kütləvi iğtişaşlar səngimək bilmir. İrəvan Dövlət Universitetinin tələbələri tətil elan ediblər. Onlar Respublika meydanında aksiya keçirən vətəndaşlara qoşulublar. Bundan əvvəl Milli Konservatoriyanın tələbələri də tətil elan etmişdi.

# Gürcüstanda çevriliş planlaşdırılır?

## Ölkənin DTX-sı xəbərdarlıq edib



Gürcüstanın Dövlət Təhlükəsizlik Xidməti (DTX) bir qrup şəxsin güc yolu ilə ölkədə hakimiyyəti dəyişməyi planlaşdırması barədə bəyanat yayıb. Qrup ölkə daxilində və xaricində hazırlanmış plana əsasən bu ilin oktyabr-dekabr ayları ərzində müəyyən qrupların destabilizasiya təşkil etməyi planlaşdırdığını, son məqsədin isə hökuməti güc yolu ilə dəyişdirmək olduğunu bəyan edib. Qeyd olunub ki, destruktiv proseslərin başladılması üçün Avropa Komissiyasının hesabatının dərc ediləcəyi oktyabr-dekabr ayları seçilib.

Bəyanatda qeyd olunub ki, sözügedən planın müəllifləri arasında keçmiş hökumətin vəzifəli şəxsləri, sabiq prezident Saakaşvilinin cangüdəni, həmçinin Ukrayna hərbi kəşfiyyatı, eləcə də Ukraynada vuruşan Gürcü Legionunun komandanlığı var. Bəyanata görə, Gürcüstanda qarışıqlığın yaradılması məqsədilə Ukraynada döyüşlərdə iştirak edən gürcülərdən, həmçinin Ukrayna-Polşa sərhədində təlim keçmiş gürcü gənclərdən istifadə ediləcək.

Bəyanatda vurğulanıb ki, risklərin neytrallaşdırılması məqsədilə DTX bütün zəruri tədbirləri digər qurumlarla koordinasiyalı şəkildə həyata keçirəcək.

Politoloq Tural İsmayılov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, Gürcüstanda Qərbin yeni rəngli inqilab ssenariləri hazırlana bilər: "Çünki rəngli "Maydan"ssenariləri Qərb imperializminin fərqli coğrafiyalara yaymaq istədiyi təhlükəli tendensiyadır. Bundan əvvəl dünyanın bir çox geopolitik nöqtələrində Qərbin bu ənənəvi inqilab ssenarilərini reallaşdırdığını müşahidə etmişik. Gürcüstana daha öncədən bu ssenari ilə yaxınlaşıb orada fəlakətlərə səbəb olan Qərb bu gün də yeni oyunlar oynamağa çalışır. Faktiki olaraq bu gün Gürcüstan hakimiyyəti daha yekdil, eyni zamanda siyasi proseslərdə ölkənin inkişafını əsas götürən komandadan təşkil olunub. Bu gün Qərbə inteqrasiya Gürcüstan üçün önəmli siyasi xətt sayılır. Amma dövlət milli maraqlarını tapdalayıb birmənalı şəkildə Qərbin plasdarmı rolunda iştirak etmək istəmir.

Bütün bunlar sorosçuların və onların ətrafındakı siyasi provokatorların Gürcüstan üzərindən təhlükəli ssenarisinə şərait yaradır. Gürcüstanın təhlükəsizlik xidmətinin bu yaxınlarda rəngli inqilabların hazırlanmağı ilə bağlı həyəcan təbili çalmağı da boşuna deyil. Hesab edirəm ki, Gürcüstan kifayət qədər yetkin cəmiyyətə və dövlət aparatına malikdir. Eyni zamanda Gürcüstanın Təhlükəsizlik Xidməti ölkə əleyhinə bu cür plandan xəbərdardırsa, bunun reallaşmaq ehtimalına qarşı əllərində konkret olaraq önləmələr var. Gürcüstana qarşı növbəti bu cür dəmarşlar həyata keçirilərsə, dövlət strukturları bunun qarşısını alacaq və eyni ssenarinin təkrarlanmasına imkan verməyəcək".

*Günel ABBAS*

# Nağdsız ödənişlər - şəffaf iqtisadiyyatın təşviqi...

**Ölkəmizdə iqtisadi artımın təmin edilməsi, şəffaflığın artırılması, maliyyə intizamının gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Bu addımlardan biri nağdsız ödənişlərin əhatəsinin genişləndirilməsidir. Məlumdur ki, nağdsız ödənişlər maliyyə əməliyyatlarının şəffaf və sürətli aparılmasına imkan verir. Digər tərəfdən isə nağdsız ödənişlərin əsas üstünlüklərindən biri onların tətbiq edilməsinin yaratdığı komfortdur. Plastik kartlar və digər nağdsız ödəniş vasitələri ilə həm ölkə daxilində, həm də xaricdə alış-veriş üçün ödəniş imkanları yaranır.**

## Ödəniş kartlarının sayı 323 min ədəd artıb

### Ötən illə müqayisədə 20.2 faiz artım...

Azərbaycanda son bir ayda ödəniş kartlarının sayı 323 min ədəd artıb. Bu barədə Azərbaycan Mərkəzi Bankından (AMB) bildirilib. Belə ki, bu il sentyabr ayının 1-nə banklar və "Azərpoçt" MMC sistemləri üzrə avqust ayının sonunda dövriyyədə olan ödəniş kartlarının sayı ötən aya nəzərən 323 min ədəd artaraq 15 milyon 669 min ədəd təşkil edib. AMB-dən verilən məlumata görə, keçən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 20.2 faiz artıb.



Qeyd edək ki, ödəniş kartlarında artım debet kartları üzrə 20 faiz, kredit kartları üzrə 21.4 faiz təşkil edib. Ötən ilin müvafiq dövrünə nəzərən əməkhaqqı kartlarının sayı 65 min, kredit kartları 362 min, digər kartlar isə 2.1 milyon ədəd artıb.

### Vətəndaşlarımız innovasiyalara açıqdır...

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən iqtisadçı, millət vəkili Vüqar Bayramov bildirib ki, dünyada çoxdan tətbiq edilən bu praktika pandemiyadan sonra Azərbaycanda geniş və sürətli formada inkişaf etməyə başladı. Bu əməliyyatlar zamanı operativliyin təmin olunduğunu vurğulayan iqtisadçı qeyd edib ki, kartla hansısa əməliyyatlar aparılarkən vergidən yayınmaq qeyri-mümkündür: "Nağdsız ödənişlər zamanı hökumət və dövlət tərəfindən pul vəsaitlərinin dövriyyəsinə alqı- satqı əməliyyatlarına geniş və dəqiq nəzarət etmək imkanı əldə olunur. Nağdsız ödənişlərin ən böyük üstünlükləri məhz bundan ibarətdir. Ümumiyyətlə, bütün ödənişlərin nağdsız şəkildə həyata keçirilməsi həm fiziki, həm hüquqi şəxslər, həm də hökumətin və dövlətin iqtisadi maraqları, mənafeyi üçün olduqca zəruri əhəmiyyət kəsb edir. Bundan başqa iri həcmdə alqı-satqı əməliyyatlarının nağd şəklində deyil, bank yolu ilə qeyri-nağd, köçürmə yolu ilə həyata keçirilməsinin tətbiqi özü çox effektiv bir vasitədir. Bu il avqustun 1-nə Azərbaycanda dövriyyədə olan ödəniş kartlarının sayı 2022-ci ilin analoji dövrü ilə müqayisədə 20 faiz artaraq 15 milyonu ötüb. Bu dövr ərzində ölkə daxilində bu kartlarla aparılan nağdsız ödənişlərin həcmi 2 dəfə artaraq 24 milyard manata çatıb. Ölkə daxilində kart ödənişlərində nağdsız dövriyyənin xüsusi çəkisi ötən ilin eyni dövrünə nisbətən 12,3 faiz bəndi artaraq 53 faizə bərabər olub. Daha bir maraqlı göstərici isə bu gün POS-terminallarda aparılan hər 4 əməliyyatdan birinin "token" əməliyyatı, yəni mobil telefonlar və ya digər ağıllı cihazlar vasitəsilə olmasıdır. Bu statistik göstəricilər vətəndaşlarda nağdsız ödənişlərə marağın yüksəldiyini və Azərbaycan əhalisinin innovasiyalara açıq olduğunu göstərir".




### İnfrasturuktur daha da genişləndirilməlidir

V.Bayramov qeyri-nağd hesablaşmaları zamanı "ƏDV geri al" mexanizminin tətbiqi ilə məqamı xüsusilə vurğulayıb. O, bildirib ki, bu mexanizm çərçivəsində təxminən yarım milyard manata yaxın vəsait vətəndaşlarımıza geri qaytarılıb: "Bütün bu faktlar vətəndaşlarımız üçün plastik kartlardan istifadəyə marağın artdığına sübutdur. 2023-cü ildən etibarən isə plastik kartlarla alış-veriş edən zaman daha çox ödəniş həyata keçirilir. Bu da təbii ki, nəticədə vətəndaşlarımızın plastik kartlardan istifadə etməklə ödənişlərin həyata keçirilməsinə marağın artmasına gətirib çıxarıb. Qeyd edim ki, Azərbaycanda plastik kartların sayında da artımlar var. Həm pandemiya dövrü, həm də son illər onlayn alış-verişə marağın güclənməsi bütövlükdə nağdsız ödənişlərin həcminin artmasına səbəb olub. Bizim də təklifimiz odur ki, bu sahədə infrastruktur daha da genişləndirilsin. Xüsusən də bölgələrdə plastik kartlardan istifadə ilə bağlı çətinliklər var".

**İqtisadi artım üçün zəmin...**

İqtisadçı qeyd edib ki, düzgün istifadə olunarsa, nağdsız hesablaşmalar vasitəsi mal və ya xidmət üçün daha etibarlı bir ödəniş üsuluna çevrilir: "Dünya ölkələri üzrə aparılmış bir sıra tədqiqatlar sübut edir ki, nağdsız hesablaşmalar iqtisadi artıma müsbət təsir edir".

*Y.SAHİB*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər**

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
Pressaİnform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.**
**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Dünya üçün yeni təhlükə: 2024-cü ildə...



## Qlobal istiləşmənin yaradacağı problemlər

*Y.SAHİB*

Bu il avqust ayı qlobal hava müşahidələri tarixində, yəni son 174 ildə ən isti ay oldu. Bu barədə ABŞ Milli Okean və Atmosfer Administrasiyasının məlumatında qeyd olunub. Bildirilib ki, bu ilin avqustunda planetdə orta qlobal temperatur XX əsrin orta göstəricisindən 1,25 dərəcə yüksək olub. Eyni zamanda istiləşmə dəqiq qlobal xarakter daşıyıb: şimal yarımkürəsində yay daha isti, cənub yarımkürəsində qış daha mülayim idi.

Bütün bunlar dünyada bir sıra təbii fəlakətləri ilə müşayiət olundu. Beləliklə, avqust ayı ərzində bütün dünyada 19 böyük və dağıdıcı qasırğa meydana gəldi. Bu fırtınalardan altısı, o cümlədən iki böyük qasırğa Atlantik okeanında baş verib ki, bu da region üçün normadan artıqdır.

ABŞ-da avqust ayı Florida ştatını vuran 3-cü kateqoriyalı İdalia qasırğası və Havayda apokaliptik meşə yanğınları ilə yadda qaldı. Cənubi Kaliforniya tarixdə ilk tropik tufanını yaşadı.

## 2024-cü il daha isti olacaq...

Alimlər deyir ki, 2023-cü il, demək olar ki, 2016-cı ildən sonra bəşər tarixində ya ən isti, ya da ikinci ən isti il olacaq.

Atmosferə əlavə istilik buraxan və orta hesabla daha isti illərlə əlaqəli olan El Nino şərtlərinin ən azı şimal yarımkürəsində qışda davam edəcəyi gözlənilir: “Biz isti havanın 2023-cü ilin sonuna qədər davam edəcəyini gözləyirik. Ola bilsin ki, 2024-cü il 2023-cü ildən də isti olsun”.

## 120 min ildən sonra ilk dəfə...

Bu ilin iyul ayı da bütün müşahidələr tarixində ən isti ay olub. Klimatoloqların qeyd etdiyi kimi, xüsusilə Cənubi və Şimali Amerika ölkələrində, Şimali Afrika və Antarktika yarımadasında isti olub. Bununla belə, bəzi iqlimşünaslar qeyd edirlər ki, bu rekord elmi hava müşahidələrinin qısa tarixindən çox genişdir. Bir sıra ekspertlər hesab edir ki, 2023-cü ilin iyulu son 120 min ildə Yer kürəsində ən isti ay olub.

# Dünyanı kəşf etmək...

*Y.BAYRAMOVA*

Müasir dünyamızda turizm istənilən ölkə üçün vacib reallıqlardan birinə çevrilib. Ölkə iqtisadiyyatına çox böyük həcmdə gəlir gətirən turizm sektoru istər milli mənfəətə, istərsə də ölkənin dünyada tanınmasına ciddi təsir göstərməkdədir.

Bu gün - sentyabrın 27-si Ümumdünya Turizm Günüdür. 1925-ci ildən Cenevrədə müxtəlif adlar altında fəaliyyət göstərən Turizm Təşkilatı 1970-ci il 27 sentyabr tarixdə Ümumdünya Turizm Təşkilatı kimi formalaşıb. 1979-cu ildə baş qərargahı Madrid şəhərinə köçən təşkilat 27 sentyabr - Ümumdünya Turizm Gününü təsis edib. Bu gün Azərbaycan da daxil olmaqla dünyanın 150-dən çox ölkəsində turizm təmsilçilərinin bayramı kimi qeyd edilir.

Turizm gününün başlıca məqsədi turizmin təbliği, dünya cəmiyyəti iqtisadiyyatına qoyulan vəsaitin işıqlandırılması və müxtəlif ölkə xalqları arasında əlaqələrin inkişafıdır. Qeyd edək ki, dünyada ilk turizm agentliyi 1841-ci ildə Tomas Kuk tərəfindən açılıb.

Turizm əsasən sosial-iqtisadi sahə kimi XIX əsrin ortalarından inkişaf etməyə başlayıb. Bu dövrə qədər isə turizm fərdi gəzinti və səyahət xarakteri daşıyıb, qeydiyyata düşmədən müxtəlif əraziləri, ölkələri gəzən adamlara “turist” deyiblər. 1954-cü ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) yığıncağında “turizm” sözü müzakirə olunub, onun beynəlxalq mahiyyəti, sosial-iqtisadi əhəmiyyəti müəyyənləşdirilib. BMT-nin 1963-cü ildə keçirilən




## Ümumdünya Turizm Günüdür

Roma konfransında isə “turist” anlayışına konkret tərif verməyə cəhd edilib. Sözsüz ki, həmin konfransda turizmə konkret tərif verə bilməyiblər. Lakin hazırda turizm bütün dünya miqyasında sosial-iqtisadi sahə kimi inkişaf etdiyinə görə, onun haqqında müxtəlif elmi ədəbiyyatlar meydana gəlib.

2023-cü il Ümumdünya Turizm Günü beynəlxalq ictimaiyyətə, hökumətlərə, çoxtərəfli maliyyə institutlarına, özəl sektor investorlarına yeni turizm investisiya strategiyası ətrafında birləşməyə çağırış olacaq. Aydındır ki, turizm dünya irsinin təmin edilməsində əsas rol oynayır. Ümumdünya Turizm Günü inkişaf, təkmilləşmə üçün turizm enerjisi ilə mübarizə aparmağa can atan hər bir ölkədə və şəhərdə geniş şəkildə qeyd olunur. Bu il Dünya Turizm Gününün əsas tədbirlərinə Kambocanın paytaxtı Pnompen ev sahibliyi edəcək.

Azərbaycanda Ümumdünya Turizm Günü 2001-ci ildən, Azərbaycanın Beynəlxalq Turizm Təşkilatına üzv olduğu vaxtdan qeyd olunur. Bu bayram turizm sahəsində çalışan bütün şirkətlərin əməkdaşları, muzey işçiləri, mehmanxana komplekslərinin rəhbərləri və işçi heyəti - peşəkar səviyyədə rahat və təhlükəsiz istirahəti təmin edən hər bir kəsin bayramıdır. Son illər Azərbaycanda turizmin iqtisadiyyatın aparıcı sahəsinə çevrilməsi istiqamətində görülən ardıcıl və məqsədyönlü tədbirlər turizmin inkişafına öz müsbət təsirlərini göstərir. Prezident İlham Əliyevin 2016-cı il sentyabrın 1-də imzaladığı sərəncama əsasən Dünya Turizm Günü ölkəmizdə “Turizm işçiləri günü” kimi də qeyd olunur.

## Dünya və Azərbaycan mübarizə aparır



İqlim dəyişikliyinə mitiqasiya və adaptasiya yolu ilə cavab vermək mümkündür. Mitiqasiya dedikdə, istixana qazı emissiyalarının azaldılması və atmosferdən çıxarılması nəzərdə tutulur. Bu metodlara külək və günəş kimi az karbonlu enerji mənbələrinin inkişafı və effektiv şəkildə istifadəsi, kömürdən istifadənin tədricən dayandırılması, enerjinin səmərəliliyinin artırılması, meşələrin bərpası və qorunması daxildir. Adaptasiya isə inkişaf etdirilmiş sahil qorunması, fəlakətlər zamanı daha yaxşı idarəçiliyin təşkili və daha dayanıqlı məhsulların inkişafı vasitəsilə faktiki və ya gözlənilən iqlimə uyğunlaşmaqdan ibarətdir.

## 2030-cü ilə qədər...

Paris Sazişinə əsasən, mitiqasiya cəhdləri ilə istiləşməni “2.0 °C-dən (3.6 °F) aşağıda” saxlamaq barədə razılığa gəlinib. Bu vədlərə baxmayaraq, əsrin sonuna kimi qlobal istiləşmə təxminən 2,8 °C-ə (5.0 °F) çatacaq və hazırki siyasət istiliyin təqribən 3,0 °C (5.4 °F) olması ilə nəticələnəcək. İstiləşmənin 1,5 °C-ə (2.7 °F) qədər məhdudlaşdırılması planı 2030-cu ilə qədər emissiyaların yarıya, 2050-ci ilə qədər isə sıfıra endirildiyi halda baş tuta bilər.

1995-ci ildə Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını (UNFCCC) təsdiqləyib. Kioto Protokolu 1997-ci il dekabrın 11-də Yaponiyanın Kioto şəhərində qəbul edilib və 2005-ci il fevralın 16-da qüvvəyə minib. Azərbaycan Respublikası Milli Məclisin 18 iyul 2000-ci il tarixli Qərarı ilə bu protokola qoşulub. Kioto Protokolu qlobal istiləşməyə səbəb olan istixana qazlarının atmosferə tullantılarını məhdudlaşdırır.

Qeyd edək ki, qlobal istiləşmə, iqlim dəyişməsi, buzlaqların əriməsi müxtəlif təhlükələr barədə bizə xəbərdarlıq edir. Bura sel və daşqınlarla yanaşı, təhlükəli virusların oyanması da daxildir. Mütəxəssislər qlobal istiləşmə zamanı virusların da təkrar canlana biləcəyi ilə bağlı ehtimalların yüksək olduğunu qeyd edirlər.

## İstiləşmənin hərəkətverici qüvvələri...

Mövzunu “Yeni Azərbaycan”a şərh edən infeksionist-həkim Vüqar Cavadzadə bildirib ki, dünya təcrübəsində buzlaqların əriməsi ilə müxtəlif virusların təkrar canlanması kimi faktlar qeydə qalınıb. Həkim qeyd edib ki, alimlərin araşdırmalarına əsasən, əslində havaların hədsiz isinməsi virusların daha da sürətli yayılmasına yol açan amillərdən biridir: “Bu gün planetimizin qarşılaşdığı ən ciddi problemlərdən biri qlobal istiləşmə və qlobal istiləşmənin yaratdığı problemlərdir. Məlumdur ki, artıq bir neçə müddətdir qlobal istiləşmə ilə bağlı müəyyən çağırışlar edilir. İstiləşmənin ən əsas hərəkətverici qüvvəsi 90%-dən çoxu karbon qazı (CO2) və metandan ibarət olan istixana qazlarının emissiyasıdır. Antropogen amillər sırasında azot oksidi, azot-1 oksid və xlor-flor birləşmələri də yer alır. Bu emissiyaların əsas mənbəyi enerji istehlakı üçün təbii yanacaqların (kömür, neft və qaz) yandırılması olsa da, kənd təsərrüfatının, ağacların kəsilməsinin və sənaye proseslərinin də rolu var. Eyni zamanda məişət tullantıları, avtomobillərin havaya buraxdıqları qazlar da atmosferi çirkləndirməklə istiləşməyə yol açır.

Son əsrdə, xüsusən də son 30-50 ildə müşahidə olunan qlobal istiləşmə onilliklər ərzində atmosferdə toplanan su buxarı, karbon dioksid, metan, azot oksidi xloroflоro karbonlar kimi günəş işığı ilə qızdırılan, Yer səthindən infraqırmızı istilik şüalarını udan qazlar tərəfindən əmələ gəlir.

Başqa sözlə, Günəşdən gələn şüaların bir hissəsi ozon təbəqəsi və atmosferdəki qazlar tərəfindən sovrulur. Bir qismi litosferden, bir qismi isə buludlardan geriyə əks olunur. Yer üzünə çatan şüalar geriyə dönərkən atmosferdəki su buxarı və digər qazlar tərəfindən tutulur. Bu hadisə günəş şüalarıyla istilənən, amma içindəki istiliyi çölə buraxmayan istixanaları xatırladır. Nəticədə atmosfer istiləşir ki, bu da istixana effekti adlanır”.

## İsti hava virusları sürətlə yayır

İnfeksionistin sözlərinə görə, bir zamanlar isti havaların virusları öldürə biləcəyi ilə bağlı müəyyən iddialar səslənsə də, bu, tamamilə əsassız və yanlış bir düşüncədir: “Müəyyən olunub ki, temperaturun artması əslində müxtəlif virusların daha da aktivləşməsinə, eyni zamanda sürətlə yayılmasına şərait yaradır. Bu baxımdan 2023 və 2024-cü illərin ən isti il olmasına dair bəzi çağırışların edilməsi ciddi siqnaldır. Bildiyimiz kimi, bütün dünya koronavirusun cəngindən hələ də xilas olmayıb. Bu bəşəri bəla yenə də aramızdadır. Son aylar yoluxma sayının əksər ölkələrdə artdığına şahid oluruq”.

# *İdman*

## Həsrət Cəfərov: Olimpiya Oyunlarına ən yaxşı şəkildə hazırlaşacağıq




“Yarımfinalda erməni güləşçiyə qalib gəlsəm də, mənim üçün rəqibin fərqi yoxdur. Heç birini ayırd etmirəm. Qarşılaşdığım bütün rəqiblərimə ciddi yanaşıram”.

AZƏRTAC xəbər verir ki, bu sözləri Serbiyanın paytaxtı Belqradda keçirilmiş dünya çempionatında gümüş medal qazanan Azərbaycanın yunan-Roma güləşçisi Həsrət Cəfərov Heydər Əliyev Beynəlxalq Aeroportunda jurnalistlərə açıqlamasında deyib. 67 kiloqram çəki dərəcəsində fəxri kürsünün ikinci pilləsinə qalxan idmançı 1/4 finalda iranlı Məhəmmədrza Gerai üzərində qazandığı 10:0 hesablı qələbəni də şərh edib: “2021-ci ildə Oslo şəhərində məğlub olduğum iranlı güləşçiyə bu dəfə qalib gəldim. O vaxt gənc idim, səhvlərim çox idi. Yarışdan sonra Vətənə gəlib, həmin səhvlərimin üstündə xeyli işlədim və nəticəsini gördüm”.

Dünya çempionatında “Paris-2024” Yay Olimpiya Oyunlarına lisenziya qazanan H. Cəfərov bildirib ki, nüfuzlu yarışdan əvvəl baş məşqçi ilə birlikdə səhvlərini analiz edəcək: “Olimpiadaya lisenziya əldə etməyim qürurverici hissdir. Amma hansısa yarışdan öncə hədəflərim haqqında danışmağı xoşlamıram. Təkcə onu deyə bilərəm ki, hər birimiz əlimizdən gələni edəcək, Oyunlara ən yaxşı şəkildə hazırlaşacağıq”.

## Turun oyunçusu adına namizəd

Xorvatiya çempionatında IX turun ən yaxşı oyunçusu adına namizədlər açıqlanıb. AZƏRTAC xəbər verir ki, beş nəfərlik siyahıda Azərbaycan millisinin və Zaqreb “Dinamo”sunun hücumçusu Mahir Emreli də var. Ötən tur “Rudes”lə matçda (5:1) fərqlənən 26 yaşlı forvard komandasının ikinci qolunun müəllifi olub. Turun oyunçusu azarkeşlərin səsverməsi əsasında müəyyənləşəcək. Siyahıda M. Emreli ilə yanaşı, Yosip Drmiç, Qabriel Vidoviç (hər ikisi “Dinamo”), Emir Sahiti (“Hayduk”) və Niko Qalesiç (“Riyeka”) də yer alıb. Qeyd edək ki, “Dinamo” komandası hazırda 16 xalla turnir cədvəlinin üçüncü pilləsində qərarlaşıb.



## İstedadlı basketbolçu ABŞ-a gedir




Gənc basketbolçulardan ibarət Azərbaycan millisinin üzvü Hüseyn Qaflanov karyerasını daha üst səviyyədə davam etdirmək üçün federasiyanın dəstəyi ilə ABŞ-a yola düşəcək. Azərbaycan Basketbol Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, yığmanın baş məşqçisi Tahir Baxşıyevin kəşf etdiyi 210 santimetr boya malik istedadlı oyunçu bu idman növünün sirlərinə daha yaxından yiyələnmək üçün 1 il müddətinə Cənubi Kaliforniya Akademiyasında (SCA) təhsil alacaq və hazırlıq kursları keçəcək. Hazırlıq prosesində basketbolçuya peşəkar mütəxəssislər tərəfindən elit bacarıq təlimləri ilə yanaşı, atletik keyfiyyətlərin və sağlamlıq performansının artırılmasına dair proqramlar da tətbiq olunacaq.

## İdman gimnastlarımız dünya çempionatına yollandı

İdman gimnastikası üzrə Azərbaycan milli komandasının üzvləri Belçikada keçiriləcək 52-ci dünya çempionatına yola düşüblər. Federasiyadan AZƏRTAC-a verilən məlumata görə, Nikita Simonov, İvan Tixonov, Nazənin Teymurova və Samirə Qəhrəmanova Antverpen şəhərinə yollanıblar. Qeyd edək ki, yarış 30 sentyabr - 8 oktyabr tarixlərində baş tutacaq.



Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 7404**
**Sifariş: 2516**
“Kapital Bank”ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova